04_27 IYUl-QARA.qxd 2/1/2024 9:51 PM Page 1

UNİKAL

№04 (2186) 2 fevral 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Azərbaycan Ermənistanı küncə sıxıb: Qalib dövlətin konkret tələbi



Səh.9

## Spiker Avropa ölkələrinin parlamentlərinə çağırış etdi

*Bu gün Bakı dünya ictimaiyyətindən, o cümlədən Avropa ölkələrinin parlamentlərindən Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması təşəbbüslərinə dəstək gözləyir.*

*"Unikal"ın xəbərinə görə, bunu Milli Məclisin sədri Sahibə Qafarova parlamentin yaz sessiyasının fevralın 1-də keçirilən ilk plenar iclasında deyib.*

*O bildirib ki, lakin bir çox ölkələr və beynəlxalq təşkilatlar tamamilə əks mövqedən çıxış edir: "Ermənistanın sürətlə silahlandırılması, parlamentlər və beynəlxalq qurumlar çərçivəsində bizə qarşı qəbul olunan qətnamələr region xalqlarının maraqlarına və sülh gündəliyinə xidmət etmir".*

Səh.2

## "Sağlamlaşdırılmasına ehtiyac olan banklar da mövcuddur"



*Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, uçot dərəcəsinin azaldılmasının bank faizlərinə təsirlərindən, Azərbaycanda fəaliyyət göstərən bankların hazırkı vəziyyətindən, utilizasiya haqqının məbləğindən və bunun avtomobil bazarına necə təsir edəcəyindən danışıb.*

Səh.4

## "Gəlir vergisinin artırılması cəmiyyətdə narazılıq yaradıb"



*Vergi Məcəlləsində mikro sahibkarlar üçün nəzərdə tutulmuş 5 %-lik gəlir vergisinin 20 %-ə qaldırılması cəmiyyətdə narazılıq yaradıb. "Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən plenar iclasında deputat Əli Məsimli deyib."Təklif edirəm ki, monitorinq aparılsın və həmin...*

Səh.5

## "Qanunlar elə yazılır ki, başa düşmürük!"



*Qanunlar elə yazılır ki, bəzən biz başa düşmürük. Bu barədə Milli Məclisin yaz sessiyasının ilk iclasında deputat Sabir Rüstəmxanlı bildirib. "Başa düşürəm, qanunların dili fərqlidir. Amma bunu normal başa düşüləcək şəkildə yazmaq lazımdır. İnsanlar qanunları başa düşmür...*

Səh.7

04_27 IYUl-QARA.qxd 2/1/2024 9:51 PM Page 2



# Şəbnəm sənət dostlarına və aparıcılara xəbərdarlıq etdi



***"Zamanında getdiyim verilişlərdə üzüyumşaqlığımdan, sadəliyimdən, mehribanlığımdan çox istifadə olunub. Ailə üzvlərimin adı ilə bağlı zarafat etməsinlər. Hər kəs özü ilə məşğul olsa, daha yaxşı olar".***

Bu sözləri müğənni Şəbnəm Tovuzlu "Xəzər axşamı" verilişində deyib. O, ailə üzvləri haqda danışan sənət yoldaşlarına və aparıcılara xəbərdarlıq edib: "Sənət dostlarımdan, aparıcılardan da bunun kimi şeylər eşitsəm, efiri tərk edəcəyəm. Verilişi tərk etmək ola bilər ki, onlar üçün fərq edər və ya etməz. Niyə də olmasın, sevilən bir ifaçıyam. Həmin aparıcı ilə çox böyük mübahisəmiz ola bilər, çox dərinə də gedə bilərəm. Buna görə istəmirəm ki, getdiyim efirdə mənim ailəm, övladlarım haqda danışılmasın. Mən əziyyətlə bu yerə çıxmışam, bəhrəsini də görürəm. Məni sevən xalqım var, buna görə də mənə toxunmayın. Fərdanın verilişdə xətrinə dəymək istəmədim, illərin dostudur. O insanları güldürə bilən bir insandır. İstəmədim nəsə deyim, amma xoşuma gəlmədi. Bundan sonra bir efirdə heç kimdən o sözü eşitməyim. Eşitsəm çox böyük mübahisəmiz düşəcək. İnanın ki, dərinə də gedən insanam. Əvvəlki üzüyumuşaq Şəbnəm deyiləm, artıq hər kəsi yaxşı tanıyıram. Qanun və qaydamız var. Reytinqə görə niyə məni incidirsən? Olmaz, xoşum gəlmir".

Qeyd edək ki, aktyor Fərda Xudaverdiyev "Xəbər-ətər" proqramında "Əvvəl "hacı" deyəndə müqəddəs torpaqlar, indi isə Şəbnəm yada düşür" sözlərini demişdi(axsam.az).

# "Zeynəb Xanlarovayla görüşmək istəyəndə dedi ki..."

***Müğənni Fədayə Laçın Xalq artisti Zeynəb Xanlarova ilə bağlı xatirəsini bölüşüb.***

Birlikdə fotolarını paylaşan ifaçı Xanlarova ilə məclislərin birində qarşılaşmalarından söz açıb: "Heç vaxt unutmadığım xoş bir xatirəni sizinlə bölüşmək istədim: Çox möhtəşəm bir konsert proqramına dəvət almışdım. Mötəbər qonaqlar var idi. Zeynəb xanım da orada idi. Digər müğənnilər, Xalq artistləri də oxumaq üçün dəvət almışdılar. Müşayiət etmək üçün musiqiçilər də yer almışdı səhnədə. Amma heç kim canlı oxumurdu. Hərə iki mahnı oxumalı idi. Mən də əlbəttə ki, Zeynəb xanımın repertuarından iki mahnımı - "El mənimdir" və "Bülbülüm"ü verdim ki, hamı kimi "cansız" oxuyum. Nə isə, sıra mənə çatdı, iki mahnını oxudum. Birdən prodüserim yaxınlaşıb dedi ki, Zeynəb xanım deyir yenə oxusun. Mən də sevinc və həyəcanla başladım Zeynəb xanımın digər mahnılarından canlı-canlı oxumağa. Həm də özünün yolu ilə. Zeynəb xanım isə təbəssümlə alqışlayırdı. Həmin an elə bilirdim ki, dünyanın xoşbəxti mənəm dünyada. Sonda yaxınlaşıb görüşmək, sevgimi



bildirmək istədim. Mənim yaxınlaşmağımı görən kimi dedi ki, mən bu qızı çox istəyirəm də. Öldüm də... Ta məndən adam olar? Nitqim tutuldu, heç nə deyə bilmədim".

Qeyd edək ki, Fədayə bir müddət əvvəl Xanlarovadan libasını istəməsi ilə gündəmə gəlmişdi.



# "Türkanın xətrinə dəyən qadını avtomobildə..."

***Müğənni Şəbnəm Qəhrəmanova açıqlaması ilə gündəmə gəlib.***

"Unikal" bizim.media-ya istinadən bildirir ki, sənətçi qonaq olduğu "Gül kimi şou" verilişində bildirib ki, həmcinsinə əl qaldıraraq, onu döyüb.

Şəbnəm bu hərəkətini həmkarı Türkan Vəlizadəyə görə atdığını söyləyib: "Əvvəllər mən çox dava edirdim. Amma indi dalaşqan deyiləm. Çünki axırı yaxşı olmur. Söhbət qalmaqaldan yox, bildiyiniz əlbəyaxa dalaşmaqdan gedir. Özümə qadağa qoydum ki, heç kimlə dalaşmayacağam. Mənim üçün çox pis bitir. Ağlayırdım ki, mən niyə ona əl qaldırıb, döydüm. Gücüm yaxşıdır. Zamanında olub ki, bir insanı döymüşəm. Bir xanım Türkan Vəlizadənin xətrinə dəymişdi. Onu çox pis döymüşəm. Ondan sonra çox pis olmuşdum. Bir xanımı elə döyməməli idim. Amma o da yerini bilməmişdi və Türkanın çox pis xətrinə dəymişdi. Türkan hamıya sataşırdı və rahat idi ki, mən yanındayam. O döyülmək hadisəsi isə avtomobildə baş verib. O xanımı maşının içində döymüşdüm. Türkan isə məni qoyub qaçmışdı. Çox sevdiyim insanlara qarşı çox həssas oluram. Onları incidən insan zərrə qədər gözümdə olmur".

# Elza Seyidcahan əməliyyat etdirib, 25 kiloqram arıqladı

***"25 kiloqramdan çox arıqlamışam". Bakıvaxtı.az xəbər verir ki, bu sözləri Əməkdar artist Elza Seyidcahan "Maqazin plus" verilişinə açıqlamasında deyib.***



Sənətçi mədəkiçiltmə əməliyyatı etdirdiyini etiraf edib: "Bəziləri kimi, mən bunu gizlətməyəcəm. Mədəkiçiltmə əməliyyatı etdirdim. Mənim geyim qarderobum elədir ki, oradakı paltarlarımı nə sata bilərəm, nə də atag O geyimlərə çoxlu pullar xərcləmişəm. Onlar hamısı mənim özümə yaraşır. Hamı o geyimləri geyinə bilər. Amma mənə başqa cür yaraşır".

04_27 IYUl-QARA.qxd 2/1/2024 9:52 PM Page 3



# Deputatdan AŞPA-ya sərt ittiham: “Bu siyasi riyakarlıq yuvası...”



***“Azərbaycan öz xarici siyasət xəttinə uyğun olaraq xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla əməkdaşlığını qurarkən onun bərabərlik, qarşılıqlı hörmət və qarşılıqlı fayda əsasında reallaşdırılmasına çalışıb. Lakin, bəzi təşkilatlar Azərbaycanın xoş niyyətlərindən sui-istifadə edərək öz çirkin məqsədləri üçün ölkəmizə qarşı yalan və iftira dolu genişmiqyaslı qarayaxma kampaniyasını aparırlar. Onlardan biri də Avropa Şurası və onun Parlament Assambleyasıdır.***

2001-ci ildə böyük həvəslə və nikbinlik hissi ilə Avropa Şurasına üzv olduq, bu üzvlükdən böyük gözləntilərimiz var idi, faydalı və səmərəli əməkdaşlıq gözləyirdik, bu təşkilatın Qarabağ probleminin həll olunmasına, ərazi bütövlüyümüzün bərpasına, qaçqın və məcburi köçkün düşmüş soydaşlarımızın pozulmuş hüquqlarının bərpasına dəstək verəcəyinə inanırdıq”.

“Unikal” xəbər verir ki, bunu Milli Məclisin yaz sessiyası üzrə ilk iclasında deputat Kamran Bayramov bildirib.

“O zaman üzərimizə götürdüyümüz bütün öhdəlikləri bu illər ərzində vicdanla yerinə yetirdik: ölüm hökmünü ləğv etdik, əksər Avropa Konvensiyalarına qoşulduq, milli qanunvericiliyimizi həmin sənədlərin müddəalarına uyğunlaşdırdıq, seçki qanunvericiliyini təkmilləşdirdik, Avropa standartlarına uyğun məhkəmə-hüquq islahatları həyata keçirtdik, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasını tanıdıq, Venesiya Komissiyası ilə səmərəli əməkdaşlıq qurduq.

Bəs bu siyasi riyakarlıq yuvası bizə nə verdi? Nəyi bəxş etdi? Ədalətsizlik bəxş etdi, qərəzli münasibət sərgilədi, anti-Azərbaycan mövqeyini üzə çıxartdı. Makronların, Şoltsların, Borellərin, Şvabların qərəzli rəylərini əsas tutdu, illər boyu Azərbaycanla bağlı qəbul etdiyi bütün qərarları daxilindəki ermənipərəst qüvvələrin diqtəsi ilə siyasiləşdirdi. Siyasi sirkə bənzəyən bu qurum ölkəmizin daxili işlərinə qarışmağa, diqtə, şantaj və təhdid dilində danışmağa, Azərbaycanı Avropa dövlətlərinin və xalqlarının düşməninə çevirməyə cəhdlər göstərdi. Nə qədər çalışsa da alınmadı!

Bu cür vəziyyətdə nümayəndə heyətimiz yeganə düzgün qərar qəbul etdi. Bu məsələdə heç bir güzəşt edilə bilməzdi. Ya Azərbaycanın, digər üzvlərlə yanaşı, bərabər hüquqları olmalı idi, bərabər münasibət bəslənməli idi, ya da bu qərəz, ədalətsizlik və xainlik məkanından uzaqlaşmalıydıq. Heç bir şübhə yoxdur ki, bu qərar Azərbaycan üçün deyil, Avropa Şurası və onun qurumları üçün ciddi fəsadlarla nəticələnəcək, statusuna və nüfuzuna birmənalı olaraq xələl gətirəcək, Cənubi Qafqazdakı mövqelərini sıfıra endirəcək”,- deyə o bildirb.

# "Əhalini bundan xilas etmək lazımdır" - Tahir Kərimli



***”Azərbaycan xalıq sağlam yaşamalıdır. Əhalimizi geni dəyişdirilmiş məhsullardan xilas etmək lazımdır”.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Tahir Kərimli deyib.

Deputat bildirib ki, Azərbaycanda satılan kənd təsərrüfatı məhsullarının üzərində məlumatlar öz əksini tapmalıdır: ”Bəzən deyirlər ki, heç kim acından ölmür, kifayət qədər ərzaq var. Afrikada belə acından ölmürlər və s. Doğrudur, indi məhsullar çoxalıb. Onlar da geni dəyişdirilmiş məhsullarla hesabına çoxalıb. Ola bilsin insanlar bir az çox yaşayır. Amma xəstə yaşayır. İnsanların 90 faizi geni dəyişdirilmiş məhsulların qəbuluna görə uşaqlıqdan axıra kimi xəstə olur, müəyyən orqanları sıradan çıxır. Ömür boyu dərmanlar qəbul edib sağlamlığını qoruyub saxlamağa çalışırlar”.

T.Kərimli qeyd edib ki, hər şeyin geni dəyişdirilib. Onun sözlərinə görə, heyvanlara geni dəyişdirilmiş yem məhsulları yedizdirilir: ”Azərbaycan əhalisini geni dəyişdirilmiş zəhərli, öldürücü məhsullardan xilas etmək lazımdır”.

***Anar Kəlbiyev***

# Cahangir Əsgərovun bankı ətrafında mübahisə

## Cüzi gəliri olan vətəndaşa 2,5 milyon manat kredit necə verilib?

***Azərbaycanda bank rəsmi gəliri cüzi olan vətəndaşa külli miqdarda istehlak krediti verib. Bu, qanun pozuntusudur. Bunu hüquqi məsələlər üzrə ekspert Əkrəm Həsənov deyib. O bildirib ki, söhbət ”Premium Bank”dan gedir. Belə ki, bank 2 il müddətinə rəsmi gəliri olmayan və ya 1000 manata kimi olan vətəndaşa 2,5 mln. manat məbləğində kredit verib. Bu müddət ərzində vətəndaş hər ay yalnız faizləri ödəməli olub.***

Ekspert qeyd edib ki, kredit 5-6 il əvvəl verilib: ”Kreditlə bağlı girov qoyulan əmlak digər şəxsə məxsus olub və həmin şəxs əmlakının girov qoyulmasından xəbərsiz olub. Kreditin götürülmə səbəbi kimi maliyyə ehtiyaclarının qarşılanması bildirilib. Bu isə ümumi bir açıqlamadır. Halbuki, konkret səbəb göstərilməli idi”.

Azərbaycan Mərkəzi Bankının “Banklarda kredit risklərinin idarə edilməsi Qaydaları” və bundan əvvəl qəbul edilmiş qaydalarına əsasən kredit verilərkən onun qaytarılması üçün girov deyil, kredit götürən şəxsin gəliri əsas götürülür. Bank isə cüzi miqdarda gəlirə böyük həcmdə kredit verməklə BGN əmsalı (Borc gəlir nisbəti) ilə bağlı qaydaları pozub. Başqa sözlə, kreditlə bağlı girov əmlak qoyulması cüzi gəlirə 2,5 milyon kredit vermək üçün əsas deyil.

Əkrəm Həsənov sadalanan faktları nəzərə almaqla hesab edir ki, “Premium Bank”ın vətəndaşa verdiyi kredit həm qanunsuz olub, həm də digər vətəndaşın əmlakı ondan xəbərsiz girov qoyulduğu üçün etibarsız olub.

Məsələ ilə bağlı o, ”Premium Bank”a sorğu göndərib. Sorğuya cavab olaraq bankdan bildirilib ki, məsələyə hazırda məhkəmə müstəvisində baxılmaqdadır: ”Proses davam edir. Əlavə şərhin verilməsinə zərurət yoxdur”.

Cüzi gəlirli vətəndaşa 2,5 milyon manat kredit verilməsi ilə bağlı xəbər geniş müzakirələrə səbəb olub. Hətta məsələyə Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımovdan da reaksiya gəlib. O, keçirdiyi mətbuat konfransında sözügedən fakta münasibət bildirərkən məsələni ”Premium Bank”ın rəhbərliyi ilə müzakirə etdiklərini bildirib.

””Premium Bank” öz strategiyasına uyğun olaraq biznes nöqteyi nəzərdən 2,5 milyon manat kredit verilməsi ilə bağlı qərar verib. Mərkəzi Bank bu kreditlə bağlı məlumatlıdır” deyən AMB rəhbəri aidiyyatı tədbirlərin görüldüyünü də sözlərinə əlavə edib.

”Lazım olduğu təqdirdə ehtiyatlar yaradılıb. Biz burada heç bir problem görmürük. Mərkəzi Bank olaraq belə kreditlərin verilməsinin qarşısını almırıq, sadəcə banklardan səbəbinin açıqlanmasını tələb edirik. Banklar əksər hallarda belə kreditlər vermir. Bu sahəyə diqqətlə nəzarət edirik” - deyə T.Kazımov daha sonra bildirib.

Məlumat üçün bildirək ki, ”Premium Bank”ın əsas səhmdarı Zərifə Həmzəyevadır. Zərifə xanım “Azərbaycan Hava Yolları” (AZAL) Qapalı Səhmdar Cəmiyyətinin keçmiş prezidenti Cahangir Əsgərovun həyat yoldaşıdır. Hazırda bankın səhmlərinin 84,5%-i ona məxsusdur. Bu isə o deməkdir ki, “Premium Bank” ASC-də Zərifə Həmzəyevaya məxsus 130,6 milyon manat var.

Onu da bildirək ki, “Premium Bank” 1993-cü ildə “AZAL Bank” adı ilə yaradılıb. 2008-ci ildə adı dəyişdirilərək “Silk Vey Bank” olub. 2018-ci ildə bankın adı yenidən dəyişdirilib və “Premium Bank” adlandırılıb.

Bankla bağlı ötən il maraqlı iddialar səsləndirilmişdi. Belə ki, 2023-cü ilin ikinci rübünün yekununda “Premium Bank” ASC-nin problemli kreditlərinin həcmi 88 min dollar olmuşdu. Vaxtında geri qaytarılmayan kreditlərin həcmi isə ümumi kreditlərin 28,7%-ni təşkil etmişdi. Müqayisə üçün bildirək ki, həmin vaxt problemli kreditlərin Azərbaycanda bank sektoru üzrə orta göstərici 6,3% idi.

”Premium Bank”ın problemli kreditlərindən, hətta bunun bağlanma ehtimalı yarada biləcəyi barədə iddialardan danışarkən ekspert Əkrəm Həsənov bildirmişdi ki, böyük ehtimalla ”Premium Bank” bağlanmayacaq. Sitat:



”Mən güman edirəm ki, bu söz-söhbətin əsas səbəbi Cahangir Əsgərovun AZAL rəhbərliyindən uzaqlaşdırılmasıdır. Oradan çıxarıldıqdan sonra hamı fikirləşir ki, Cahangir Əsgərovun hər şeyi əlindən alınacaq. Mən inanmıram ki, ”Premium bank” bağlanacaq. Yəni içdə olan problemlərin hamısını dəqiqliklə bilə bilmərik. Məlumatı daha dəqiq Mərkəzi Bank bilir. Amma banklar barəsində məlumatlı olan biri olaraq deyə bilərəm ki, ”Premium Bank”da vəziyyət bərbaddır...”

Onu da deyək ki, ”Premium Bank” ASC 2023-cü ili 7 milyon 453 min manat xalis mənfəət ilə başa vurub. Bank 2022-ci ili 5 milyon 466 min manat xalis mənfəət ilə bağlamışdı. Beləliklə,”Premium Bank” ASC-nin xalis mənfəəti 2023-cü ildə 2022-ci illə müqayisədə 1 milyon 987 min manat və ya 36,3% artıb. Keçən il Bankın xalis mənfəətinin artması mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyatlardan azad olan məbləğ ilə əlaqədardır.

Xatırladaq ki, Cahangir Əsgərov 1 sentyabr 2023-cü ildə ”Azərbaycan Hava Yolları”nın prezidenti vəzifəsindən azad edilib. Onun həyat yoldaşı isə ”Premium Bank”ın əsas səhmdarı olmaqla yanaşı nizamnamə kapitalı 26,5 milyon manat olan “Gazelli Group” MMC-nin də təsisçisidir.

Yeri gəlmişkən, Əsgərovun qızları da böyük biznes sahibidirlər. Belə ki, “İpək Yolu” sığorta şirkətinin iki əsas səhmdarı (hər biri 38,7% paya sahibdir) Cəmilə və Məlahət Əsgərovalardır. Onların hər birinin payı 5,7 milyon manat dəyərindədir.

***Toğrul Əliyev***

04_27 IYUl-QARA.qxd 2/1/2024 9:52 PM Page 4



# Azərbaycan Ermənistanı küncə sıxıb: Qalib dövlətin konkret tələbi

***Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqla görüşündə Ermənistan və Avropa Şurası ilə münasibətlərdən danışıb. Dövlət başçısı bildirib ki, Azərbaycan ilə Ermənistan arasında artıq de-fakto sülh mövcuddur və iki ölkənin sərhədində bir neçə aydır sülh şəraiti hökm sürür. Amma bu prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.***

Mövzu ilə bağlı "Unikal"a açıqlama verən politoloq Qabil Hüseynli söyləyib ki, Azərbaycan dəfələrlə sülh tərəfdarı olduğunu bəyan edib: "Azərbaycan həmişə sülh müqaviləsinin tezliklə bağlanmasının tərəfdarı olub. İkinci Qarabağ Müharibəsindən sonra Azərbaycan daim sülhün əldə olunmasından danışıb. Son zamanlar sülh prosesi xeyli intensivləşib.



Prosesə Qərb dünyasının və Rusiyanın qoşulması bu işi bir az da çətinlədir. Təəssüflər olsun ki, vasitəçi kimi prosesə müdaxilə edən güc mərkəzləri öz strateji maraqlarını gündədə sülhün əldə olunması lənglyir. Vasitəçi tərəflərdən biri olan Rusiya isə Ermənistana silah göndərməyə başlayıb. Yaxın günlərdə təxminən 400 milyon dollarlıq müasir silahları Ermənistana göndərib. Üstəlik də, Rusiya sülh müqaviləsinin Moskva şəhərində imzalanmasını istəyir. Qərb dövlətləri, Avropa Şurası və ABŞ da Azərbaycan üçün əlverişli olmayan şərtlərdən danışırlar. "Azərbaycandan çıxmış ermənilər geri qayıtsın, onlara beynəlxalq status verilsin" və s. kimi əsassız təkliflər irəli sürürlər. Bütün bunlar ortaya çıxanda sülh müqaviləsi ilə bağlı fikirlər tamamilə dağılır. İndi isə Azərbaycan tərəfi növbəti dəfə bəyan edir ki, sülh müqaviləsinin imzalanmasını istəyir. Baxaq, görək, Ermənistan tərəfindən hansı cavab gələcək", - deyə o qeyd edib.

Onu da nəzərə çatdıraq ki, Prezident Avropa Şurasına xəbərdarlıq edib. İlham Əliyev bildirib ki, Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq.

Qabil Hüseynli Prezident İlham Əliyevin Avropa Şurası ilə bağlı səsləndirdiyi fikirləri də şərh edib: "Azərbaycanla Avropa Şurası arasında mürəkkəb münasibətlər yaranıb. Belə görünür ki, Avropa Şurası Azərbaycanın İkinci Qarabağ Müharibəsindəki qələbəsindən sonra başını itirib və dövlətimizə qarşı nifrət bəsləməyə başlayıb. Azərbaycan öz ərazi bütövlüyünü təmin etdikdən sonra Avropa Şurasının dövlətimizə qarşı kini bir qədər də artdı. Onlar Azərbaycana qarşı müxtəlif sanksiyalar tətbiq etməyə başladılar. Həmin sanksiyalardan biri də Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin Avropa Şurası tərəfindən qəbul edilməməsidir. Beləcə, məsələ mürəkkəbləşdi. Azərbaycan isə Avropa Şurasındakı fəaliyyətini 1 illik dayandırdı. Gələcəkdə nə olacağını demək çətindir. Hazırda isə vəziyyət xoşagələn deyil", - deyə politoloq qeyd edib.

Prezident İlham Əliyevin Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edərkən Ermənistanla sülh gündəliyini yeni prioritetlərlə gündəmə gətirməsi diqqət çəkir. Siyasi şərhçi Aqşin Kərimov deyir ki, Prezidentin ilk növbədə Azərbaycanla Ermənistan arasında artıq de-fakto sülhün mövcudluğunu deməsi ona işarə edir ki, iki dövlət prosesi hüquqi sənədlərlə yekunlaşdırmalıdır: "İndiki məqamda Azərbaycanla Ermənistan arasındakı münasibətləri tənzimləyən Bakının geosiyasi təzyiq alətləridir. 10 Noyabr Bəyanatının müddəalarından irəli gələn məsələləri Azərbaycan özü həll edir. Deməli əsas nizamlayıcı xassə Azərbaycanın geosiyasi məqsəd və məramlarında, güclənən hərbi qüdrətində "gizlənib" və Ermənistanın tək çıxış yolu isə hüquq sistemində müvafiq dəyişiklikləri etməkdir.

Əliyev buna görə deyir ki:

- Prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır,
- Ermənistanın müstəqillik haqqında Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinin Ermənistanla birləşdirilməsinə və Azərbaycanın ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var,
- Ermənistan Konstitusiyasında və digər normativ hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda sülhə nail oluna bilər".

Müsahibimiz onu da nəzərə çatdırıb ki, belə bir məqamda ortaya maraqlı bir ələqə çıxır, Ermənistanın baş naziri Nikol Paşinyan da ölkəsinin Konstitusiyasının dəyişdirilməsi üçün çağırışlarını artırır: "Deməli, Paşinyan başa düşür ki, sülh müqaviləsinin imzalanmasında münbit zəminin yaradılması Konstitusiyadakı dəyişikliklərdən keçir. Paşinyandan isə müsbət siqnalların verilməsi şifahi olaraq yaxşı görüntüyə malikdir, ancaq Bakı bu prosesə ehtiyatlı nikbinliklə yanaşır.

Ən azından ona görə ki, Paşinyan müxtəlif bəhanələrlə prosesdən yayına və əlində erməni cəmiyyətinin dəyişikliklərə etirazını bayraq tuta bilər. Üstəgəl, Paşinyan Ermənistana Qərbdə təhlükəsizlik zəmanətləri arayarkən bu müddəti vaxt qazanmaq üçün istifadə etmək kimi strategiyaya da malik ola bilər. Əliyevin Fransanın regionda dağıdıcı siyasət həyata keçirərək odun üstünə benzin tökmək prinsipindən çıxış etdiyini deməsi, Ermənistana təhlükəsizliklə bağlı vədlərin əsasən hansı mərkəzdən verildiyini təsvir etməyə yardımçı olur. Lakin istənilən vəziyyətdə Əliyev Paşinyanın qarşısında şərt qoyur ki, Azərbaycan torpaqlarının işğalda olduğu zamanlar qəbul edilmiş Ermənistan Konstitusiyasında dəyişiklik regional geosiyasi zərurətdir.

Paşinyan zərurətlərə şifahi razılıqlarla yox, yazılı və müqaviləli öhdəliklərlə məsuliyyət daşımalıdır. Əliyev bildirir ki, erməni xalqı necə işğal dövrünün reallıqlarının Konstitusiyada əksinə razı olubsa, indi erməni cəmiyyətini bu fikirdən daşındırmaq da Paşinyanın üzərinə düşən ağır məsuliyyətdir. Bu məsuliyyətdən qaçış isə regional eskalasiyadakı risk mənbələrindən birinə qahmar çıxmaqdır. Azərbaycan bu variantda hansı addımlarla irəliləyəcəyini onun kəşfiyyat imkanları, diplomatik səyləri, siyasi iradəsi və hərbi qüdrəti kompleks şəkildə müəyyənləşdirəcək".

Politoloq Elxan Şahinoğlu isə deyib ki, Prezident İlham Əliyevin Ermənistanın müstəqillik haqqında bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinin Ermənistanla birləşdirilməsinə və Azərbaycanın ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışların Ermənistanın Konstitusiyasında öz əksini tapması mövzusunu aktuallaşdırması doğru strategiyadır. "Bu ona işarədir ki, baş nazir Nikol Paşinyan Ermənistanın Konstitusiyasında həmin bəndləri çıxarmadan Azərbaycanla sülh sazişi imzalaya bilməyəcək. İlham Əliyev eyni zamanda Konstitusiya mövzusunda Ermənistanda müzakirələrin başlanmasını müsbət addım kimi qiymətləndirərək bunun sülh prosesinin tezliklə yekunlaşdırılması üçün yaxşı imkan yarada biləcəyini vurğulayıb. Əslində bu Paşinyana mesajdır ki, sülh istəyirsənsə Azərbaycanın ərazi bütövlüyünü tanımaq azdır, Konstitusiyanı da dəyişdirməlisən" - deyə E.Şahinoğlu fikrini tamamlayıb.

***Murad İbrahimli***

# İntizam komissiyasının yeni tərkibdə ilk iclası



***Fevralın 1-də Milli Məclisin İntizam komissiyasının iclası keçirilib.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"-a verilən xəbərə görə, iclasa moderatorluq edən komissiya üzvü Səttar Möhbalıyev deyib ki, Milli Məclisin Daxili Nizamnaməsinin 41-ci maddəsinə görə, parlamentin yaz sessiyasının bu gün keçirilən ilk iclasında İntizam komissiyasının tərkibi yenidən formalaşdırılıb. O bildirib ki, yeni yaradılan komissiyanın ilk iclasının gündəliyinə komissiya sədrinin, onun müavininin və komissiyanın katibinin seçilməsi məsələləri daxildir. İclasın moderatoru deputat Eldar İbrahimovun ötən dövrdə İntizam komissiyasına rəhbərliyini müsbət dəyərləndirib və komissiyanın sədrliyinə onun namizədliyini irəli sürüb.

İclasda iştirak edən Milli Məclis sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək deputatları təbrik edib, bütün komissiya üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Birinci vitse-spiker deputatların etik davranış və intizam məsələləri ilə bağlı qeydlərini, fikirlərini bölüşüb.

Sonra iclasda komissiya sədri Eldar İbrahimov, komissiya sədrinin müavini Fəzail Ağamalı, üzvləri Hikmət Məmmədov və Məşhur Məmmədov Milli Məclisin rəhbərliyinə və parlamentin deputatlarına onlara göstərilən etimada görə təşəkkür ediblər, komissiyanın gələcək fəaliyyəti ilə bağlı fikirlərini səsləndiriblər.

Bununla da Milli Məclisin İntizam komissiyasının iclası başa çatıb.

İclasda deputatlar Nurlan Həsənov, Afət Həsənova, Məlahət İbrahimqızı, Nəsib Məhəməliyev, Nizami Səfərov, Kəmaləddin Qafarov və digər rəsmi şəxslər iştirak ediblər.

# Yanvarda 24 sərhəd pozucusu saxlanılıb

***Dövlət Sərhəd Xidməti tərəfindən 2024-cü ilin yanvar ayı ərzində dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qaçaqmalçılıq, qeyri-leqal miqrasiya, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilib.***

"Unikal" xəbər verir ki, bu barədə DSX-dən məlumat verilib.

Ay ərzində dövlət sərhədini pozduqlarına görə 24 nəfər saxlanılıb, onların 13-ü Azərbaycan, 3-ü Pakistan, 2-i Nepal, 2-i Tacikistan, 1-i Hindistan, 1-i Mərakeş, 1-i Gürcüstan və 1-i Türkiyə vətəndaşı olub.

Qanunsuz miqrasiya ilə mübarizə tədbirləri çərçivəsində 19 nəfər saxta tarix möhürü, saxtalaşdırılmış pasport, özgəsinə məxsus sənədlə dövlət sərhədini keçməyə cəhd göstərərkən saxlanılıb.

Sərhəd rejim qaydalarını pozduqlarına görə 1 103 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb.

Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 305 nəfər saxlanılaraq aidiyyəti orqanlara təhvil verilib, ölkədən çıxışı qadağan olunan 374 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olunan 16 nəfərin ölkəyə daxil olmasının qarşısı alınıb.

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində 107 kiloqram 343 qram narkotik vasitə və narkotik tərkibli güclü təsiredici vasitə hesab edilən 135 ədəd həb aşkarlanaraq dövriyyədən çıxarılıb.

Qaçaqmalçılıq fəaliyyətinə qarşı həyata keçirilmiş mübarizə tədbirləri nəticəsində ümumi dəyəri 934 min 715 manat olan qaçaqmal, o cümlədən 1 ədəd "Glock" markalı tapança, külli miqdarda ABŞ valyutası, nərə balığı və tütün məmulatları saxlanılıb.

Dövlət sərhədlərimizin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir.

04_27 IYUI-QARA.qxd 2/1/2024 9:52 PM Page 5



# Prezident gəncləri təltif etdi - Siyahı



***Prezident İlham Əliyev 2024-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncamla elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2024 cü il Gənclər üçün Prezident mükafatları verilib:

Abdullayeva Gülnar Rizvan qızı
Ağamirova Rəvanə Seymur qızı
Ağazadə Taryel İsa oğlu
Allahverdiyev Ayxan Elman oğlu
Baxışova Rzayeva Kimyəxanım Ziyad qızı
Məhərrəmova Zərifə Hüseyn qızı
Məmmədov Ulucay Akif oğlu
Məmmədova Dinara Bəxtiyar qızı
Məmmədova Fatimə Nizami qızı
Mirələmli Pərviz Atamalı oğlu.

# Elm və Təhsil Nazirliyində yeni təyinat



***Elm və Təhsil Nazirliyində yeni təyinat olub.***

"Unikal" xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayevin müvafiq əmri ilə Çapay Məmmədov nazirliyin İnsan resursları şöbəsinin müdiri vəzifəsinə təyin olunub.

Məlumatı saytımıza Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən təsdiqləyiblər.

Qeyd edək ki, nazirliyin İnsan resursları şöbəsinin sabiq müdiri Eşqi Bağırov bir müddət öncə Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru vəzifəsinə təyin olunub.

# Mərkəzi Bank valyuta ehtiyatlarını artırıb

***Bu günə Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları 11 milyard 637 milyon ABŞ dolları təşkil edib.***

"Unikal" bu barədə quruma istinadən xəbər verir ki, bu, yanvarın 1-i ilə müqayisədə 0,2 % çoxdur. AMB-nin valyuta ehtiyatları son 1 ildə isə 28,4 % artıb. Bundan başqa, bu günə Azərbaycanda pul bazası 20 milyard 271,1 milyon manat təşkil edib. Bu, yanvarın 1-i ilə müqayisədə 2,9 % azdır.

Bununla belə, ölkədə pul bazası son 1 ildə 20,1 % artıb.

## ELAN

Əhmədov Elman Tofik oğluna məxsus Bakı şəhər Səbail rayonu Salyan şossesi 23 D ünvanında yerləşən fərdi yaşayış evinin çıxarışı itdiyi üçün etibarsız sayılsın.

# Diaspor nümayəndələri İlham Əliyevin namizədliyini dəstəkləyir

***7 fevral 2024-cü ildə Azərbaycanda keçiriləcək növbədənkənar Prezident seçkiləri yaxınlaşdıqca, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız seçkilərlə bağlı mövqelərini açıqlayırlar.***

"Unikal" xəbər verir ki, ayrı-ayrı ölkələrdə yaşayan həmvətənlərimiz "Facebook" sosial şəbəkəsində yaratdıqları "BİZ - Zəfər Yoluna Davam!" platforması vasitəsilə dünya azərbaycanlılarını milli birlik nümayiş etdirərək, seçkilərdə fəal olmağa dəvət edirlər.

İrəvan xanlarının nəslinin Almaniyada yaşayan davamçısı Əmir Əli Sərdari İrəvani qarşıdan gələn seçkilərdə Prezident İlham Əliyevin namizədliyini dəstəklədiyini, onun Azərbaycanın inkişafı naminə göstərdiyi xidmətləri və taleyüklü məsələlərin həllində nümayiş etdirdiyi qətiyyəti təqdir etdiyini, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın bundan sonra da inkişaf edəcəyinə və yeni-yeni zirvələr fəth edəcəyinə əminliyini ifadə edib: "Mən Sizi dəstəkləməklə yanaşı, icmalarla söhbətlərdə də fəal iştirak edir, seçki kampaniyanıza əlavə dəstək qazanmaq üçün çalışdığımı bildirmək istəyirəm".

Birləşmiş Krallıqda yaşayan Azərbaycanlıların Koordinasiya Şurası da fevralın 7-də keçiriləcək növbədənkənar Prezident seçkilərində İlham Əliyevin namizədliyini qətiyyətlə dəstəklədiyini bəyan edib: "Qarşıya qoyulan hədəflərə isə yalnız dövləti və cəmiyyəti səfərbər edə bilən güclü və uzaqgörən Liderlə nail olmaq mümkündür. İlham Əliyev yüksək keyfiyyətləri, dövlət və xalq qarşısında misilsiz xidmətləri ilə Azərbaycana davamlı



nailiyyətlər qazandıran, ölkəni daha parlaq gələcəyə aparan ən ideal namizəddir".

Tel-Əviv şəhəri dag yəhudilərinin baş ravvini Şmuel Siman Tov isə deyib ki, İsraildə yaşayan Azərbaycan diasporu İlham Əliyevi daim Prezident görmək arzusundadır: "Azərbaycan tarixinin ən şərəfli günlərini Sizin sayənizdə yaşadıq. Bizə bu qüruru yaşatdığınız üçün Sizə hər zaman minnətdarıq!"

Kanadanın Toronto şəhər Təhsil Mərkəzinin Xarici Dillər Bölməsinin Azərbaycan Dili sinfinin rəhbəri və müəllimi Yeganə Cəfərova yazıb ki, hər an Azərbaycan dövlətinə, onun siyasətinə sadiq qalan diaspor nümayəndələri olaraq Prezident İlham Əliyevin Dünya Azərbaycanlıların V (Zəfər) Qurultayında dediyi tövsiyələri rəhbər tutaraq bu yolda yorulmadan çalışırlar: "Sizin ölkəmizin sülh işində yaşamasını təmin edən, xalqımızın rifahı və firavanlığı naminə çalışan yeganə namizəd olduğunuza qətiyyətlə əminəm. "Qalib Xalqın, Qalib Lideri" olaraq Sizə qarşıdan gələn 7 fevral tarixində keçiriləcək seçkilərdə qələbə qazanmağınızı arzulayıram".

Gürcüstanın "Lider Media Təşkilatı"nın və 24News.ge xəbər portalının direktoru Azər Məmmədov qeyd edib ki, İlham Əliyevin apardığı siyasət xalqımıza, eləcə də dünyada yaşayan soydaşlarımıza başucalığı gətirib: "Siz Müzəffər Lider kimi 44 gün ərzində Azərbaycan torpaqlarının azad edilməsinə rəhbərlik etməklə, tarixi sərkərdə kimi yaddaşlara əbədi həkk olmusunuz. Qarşıdan gələn növbədənkənar Prezident seçkilərində Sizi dəstəkləyirik və uğurlu qələbənizə bir daha şahid olacağımızı səbirsizliklə gözləyirik".

Latviyanın Riqa şəhərində fəaliyyət göstərən "Azəri" Gənclər Təşkilatı da 7 fevral seçkilərində İlham Heydər oğlu Əliyevin namizədliyini dəstəkləməyə qərar verib. Bu barədə təşkilatın sədri Amil Səlimov bildirib: "Siz ölkə tariximizin ən şanlı səhifələrindən birinə imza ataraq, Müzəffər Ali Baş Komandan kimi Azərbaycanın bütün torpaqlarının işğaldan azad edilməsinə nail olmusunuz. Səsvermə hüququ olan hər bir soydaşımızı 7 fevral Prezident seçkilərində Sizin namizədliyinizi dəstəkləməyə dəvət edirik. Sizin liderliyinizin davam etməsi vətənimizdə daha da güclü və firavan bir həyatın olacağı deməkdir".

Kanadanın Alberta əyalətinin Kalqari şəhərində yaşayan cüdo üzrə məşqçi Vəsfi Əliyev İlham Əliyevə etimadının sarsılmaz olduğunu vurğulayıb: "Əminik ki, siz Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasının, xalqımızın suverenliyinin və firavanlığının təminatçısısınız. Qarşıdan gələn Prezident seçkilərində Sizə qələbə arzulayıram və qarşıdan gələn Olimpiya Oyunlarında Sizin rəhbərliyiniz altında Azərbaycanın uğurlarının şahidi olmaq istəyirəm".

# Spiker Avropa ölkələrinin parlamentlərinə çağırış etdi

***Bu gün Bakı dünya ictimaiyyətindən, o cümlədən Avropa ölkələrinin parlamentlərindən Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması təşəbbüslərinə dəstək gözləyir.***

"Unikal"ın xəbərinə görə, bunu Milli Məclisin sədri Sahibə Qafarova parlamentin yaz sessiyasının fevralın 1-də keçirilən ilk plenar iclasında deyib.

O bildirib ki, lakin bir çox ölkələr və beynəlxalq təşkilatlar tamamilə əks mövqedən çıxış edir: "Ermənistanın sürətlə si-



lahlandırılması, parlamentlər və beynəlxalq qurumlar çərçivəsində bizə qarşı qəbul olunan qətnamələr region xalqlarının maraqlarına və sülh gündəliyinə xidmət etmir".

S.Qafarova vurğulayıb ki, Cənubi Qafqazın indiki mürəkkəb dövrdə sülhə və sabitliyə həmişə olduğundan daha böyük ehtiyacı var: "Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, müstəqil siyasət yürütməsindən narahat olmağa əsas yoxdur. Əksinə, müstəqil siyasət yürütmək imkanı mübahisələrin, anlaşılmazlıqların üçüncü tərəflərin müdaxiləsi olmadan sadə həll yollarını tapmaq üçün etibarlı zəmin yaradır".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5ª
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Buraxılış imtahanlarının tarixi açıqlandı

***Ümumi (9 illik) və tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarının şəhər və rayonlar üzrə keçirilmə qrafiki müəyyən olunub.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən (DİM) verilən məlumatda bildirilib.

Qeyd edilib ki, tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı 3 və 10 mart, ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı isə 17 mart, 7 və 21 aprel 2024-cü ildə keçiriləcək.

Qeyd edilib ki, məcburi köçkün rayonlarının məktəblərində təhsil alan şagirdlər bitirdikləri təhsil müəssisəsinin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixlərdə imtahan verirlər.

Gəncə şəhərində yerləşən məktəblərin 11-ci və 9-cu sinif, Xəzər, Sumqayıt, Abşeron, Şəmkir, Lənkəran, Cəlilabad, Masallı, Xaçmaz və Quba rayonlarında yerləşən məktəblərin isə 9-cu sinif şagirdlərinin imtahanı hərəkət intensivliyinin azaldılması məqsədilə iki imtahan gününə bölünüb. Cədvəldə bu hal müvafiq olaraq, 1-ci və 2-ci hissə kimi adlandırılıb. Yaxın günlərdə hissələr üzrə məktəblərin siyahısı cədvələ əlavə olunacaq.



İmtahana buraxılış vərəqələri hər imtahan günündən 5 gün əvvəl DİM-in saytında yerləşdiriləcək.

04_27 IYUI-QARA.qxd 2/1/2024 9:52 PM Page 6



# Azərbaycan Prezidentindən AŞPA-ya xəbərdarlıq

## İlham Əliyev: "Nümayəndə heyətimizin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edib. Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi, bunun Azərbaycan xalqı və dövləti üçün tarixi məqam olduğunu qeyd etdi, bu yeni şəraitin regionda sülhün və sabitliyin gücləndirilməsi üçün imkanlar yaratdığını vurğuladı.***

Dövlətimizin başçısı dedi ki, Minsk qrupu 28 il ərzində münaqişənin həlli prosesi ilə məşğul olsa da heç bir nəticə əldə edilmədi, Azərbaycan torpaqları işğaldan azad olunmadı, məcburi köçkünlərin geri qayıtması təmin edilmədi. Azərbaycan tərəfi isə torpaqları işğal altında olan zaman haqlı şəkildə Minsk qrupunun üzv dövlətlərini Ermənistana təzyiq



göstərmək, ona müvafiq sanksiyalar tətbiq etmək barədə təkliflər irəli sürdüyü halda, o vaxt Minsk qrupu tərəfindən bu istiqamətdə heç bir addım atılmadı.

Prezident İlham Əliyev diqqətə çatdırdı ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra Azərbaycan regionda sülh gündəliyinin təşəbbüskarı olaraq Ermənistanla sülh müqaviləsinin imzalanması təklifi ilə çıxış edib. Amma Ermənistan tərəfindən buna adekvat reaksiya verilmədi. Ona görə də Azərbaycan sülh müqaviləsinin əsaslarını təşkil edən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip irəli sürüb ki, bunun əsasında da sülh müqaviləsi üzrə danışıqlar prosesinin təşəbbüskarı Azərbaycan olub.

Dövlətimizin başçısı 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra üçtərəfli Bəyanat çərçivəsində Ermənistanın üzərinə götürdüyü bir sıra öhdəliklərini yerinə yetirmədiyini, son 3 il ərzində Azərbaycanın Qarabağ bölgəsində separatizmi maliyyə, hərbi və digər vasitələrlə dəstəkləməkdə davam etdiyini bildirdi.

Azərbaycan Prezidenti ötən il sentyabrın 2-də Ermənistan rəhbərliyinin qondarma "Dağlıq Qarabağ respublikası"nın "müstəqilliyi" münasibətilə göndərdiyi təbrikin, həmçinin sentyabrın 9-da keçirilmiş dırnaqarası "prezident seçkiləri"nin sülh prosesinə ciddi zərbə vurduğunu, Azərbaycanın özünün ərazi bütövlüyünü və suverenliyini təmin etmək üçün antiterror tədbirləri keçirməli olduğunu vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan ilə Ermənistan arasında artıq de-fakto sülh mövcuddur və iki ölkənin sərhədində bir neçə aydır sülh şəraiti hökm sürür. Amma bu prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

Prezident İlham Əliyev bu xüsusda qeyd etdi ki, Ermənistanın müstəqillik haqqında Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinin Ermənistanla birləşdirilməsinə və Azərbaycanın ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var və bu sənədə istinadlar da Ermənistanın Konstitusiyasında öz əksini tapıb. Həmçinin Ermənistanın digər normativ-hüquqi sənədlərində Azərbaycana qarşı ərazi iddiaları, Ermənistanın qoşulduğu bir çox konvensiyalarda və digər sənədlərdə Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımayan çoxsaylı qeyd-şərtlər mövcuddur. Bununla yanaşı, dövlətimizin başçısı vurğuladı ki, Ermənistanın beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı irəli sürdüyü iddiaların əsasını da Ermənistan tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınmaması, Qarabağın Azərbaycandan ayrılması kimi məsələlər təşkil edir. Azərbaycan Prezidenti qeyd etdi ki, bu iddialara son qoyulduğu, Ermənistan Konstitusiyasında və digər normativ hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda sülhə nail oluna bilər. Ermənistanda bunun tez bir vaxtda həyata keçirilməsinin vacibliyini bildirən dövlətimizin başçısı vurğuladı ki, hazırda Ermənistanda bu mövzuda ölkədaxili müzakirələrin başlanması müsbət addım kimi qiymətləndirilir və bu, sülh prosesinin tezliklə yekunlaşdırılması üçün yaxşı imkan yarada bilər.

Qonaq Beynəlxalq Parlamentlər İttifaqının Ermənistanın və Azərbaycanın parlament nümayəndələri arasında dialoq üçün platforma ola biləcəyi təklifi ilə çıxış etdi. Dövlətimizin başçısı bu təşəbbüsü yüksək qiymətləndirərək, iki ölkənin parlamentləri arasında məhz bu platformada dialoqun aparılmasının Azərbaycan tərəfindən dəstəkləndiyini diqqətə çatdırdı.

Fransanın regionda dağıdıcı siyasət həyata keçirərək od üstünə benzin tökmək prinsipindən çıxış etdiyini, Ermənistanın militarizasiya siyasətini apardığını, geosiyasi intriqaların təşəbbüskarı olduğunu deyən Prezident İlham Əliyev rəsmi Parisin regionda vəziyyətin gərginləşməsinin səbəbkarı olduğunu, müxtəlif beynəlxalq təşkilatlarda və parlament müstəvilərində anti-Azərbaycan siyasət yürütdüyünü də diqqətə çatdırdı. Dövlətimizin başçısı Fransanın Cənubi Qafqaz regionunda aparıcı mövqeyə nail olmaq və nüfuzunu gücləndirmək məqsədilə siyasət yürütdüyünü, lakin onların bu istiqamətdəki cəhdlərinin əbəs olduğunu vurğuladı.

Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasında anti-Azərbaycan xarakteri daşıyan və Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməməsi ilə bağlı azlıq olan bir qrupun təşəbbüsünün dialoqa xidmət etmədiyini vurğulayaraq bildirdi ki, bu, ümumiyyətlə, parlament platformasının ənənələri ilə ziddiyyət təşkil edir. Azərbaycan nümayəndə heyətinin hüquqlarının bərpa edilməli olduğunu deyən dövlətimizin başçısı diqqətə çatdırdı ki, Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq.

Martin Çunqonq Parlamentlərarası İttifaqın parlamentarilər arasında dialoqa, inklüzivliyə çağırdığını, eksklüzivliyinin tərəfdarı olmadığı, bu kimi yanaşmaların düzgün qəbul edilmədiyini, beynəlxalq parlamentarizm ənənələri ilə uyğun gəlmədiyini diqqətə çatdırdı.

Qonaq COP29-la bağlı dövlətimizin başçısını təbrik edərək, COP29 keçiriləcəyi zaman Parlamentlərarası İttifaq çərçivəsində parlament nümayəndə heyətlərini bir araya gətirən, ətraf mühit və iqlim dəyişikliyi istiqamətlərində beynəlxalq səyləri dəstəkləyən bir tədbirin təşkil olunma təşəbbüsü ilə çıxış etdi. Bu təşəbbüsü dəstəkləyən dövlətimizin başçısı qonağı Azərbaycanın ev sahibliyi edəcəyi COP29-a dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Parlamentlərarası İttifaqın Baş katibi Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə də təbriklərini çatdırdı, ölkəmizin Hərəkatın parlament ölçüsünün yaradılması təşəbbüsünü təqdir etdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi müddətində bu təsisatın beynəlxalq nüfuzunun artırılması, yeni əməkdaşlıq sahələrinin yaradılması, bu xüsusda parlament, gənclər ölçülərinin və qadın platformasının təsis olunması istiqamətində təşəbbüslərlə çıxış etdiyini vurğuladı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

***İnformasiya şöbəsi***



# Ceyhun Bayramov Parlamentlərarası İttifaqın baş katibi ilə görüşdü

***Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

XİN-dən "Unikal"a verilən xəbərə görə, görüşdə Azərbaycan və Parlamentlərarası İttifaq arasında mövcud əməkdaşlığın inkişaf perspektivləri, habelə regiondakı cari vəziyyət müzakirə edilib.

Nazir Ceyhun Bayramov müxtəlif ölkələrin parlamentləri arasında şəbəkələşmə, fikir mübadiləsi və təmasların qurulmasına töhfə verməsi baxımından Parlamentlərarası İttifaqın mühüm mandata sahib olmasını qeyd edərək, ölkəmizin də İttifaqın fəaliyyətində aktiv iştirak etdiyini bildirib. Parlamentlərarası İttifaq ilə ölkəmizin Qoşulmama Hərəkatına (QH) sədrliyi dövründə əsası qoyulmuş QH Parlament Şəbəkəsi arasında əməkdaşlığın geniş perspektivlərinin olduğu, bu istiqamətdə İttifaqın cari ilin mart ayında Cenevrədə keçiriləcək 148-ci Assambleyasının əməkdaşlıq imkanlarının müzakirəsi baxımından faydalı olacağı qeyd edilib.

Ölkəmizin 2024-cü ildə BMT sisteminin ən irimiqyaslı tədbiri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini qeyd edən nazir Ceyhun Bayramov, bu istiqamətdə görülən hazırlıq işləri ilə bağlı ətraflı məlumat verib, Parlamentlərarası İttifaqın tədbirdə yaxından iştirak edəcəyinə ümidvarlıq ifadə olunub.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, ölkəmizin işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi bərpa və yenidənqurma işləri, habelə sülh təşəbbüsləri barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov, ötən il Qarabağ bölgəsində aparılan lokal antiterror tədbirlərindən sonra BMT və bir sıra digər beynəlxalq təşkilatların nümayəndələrinin 30 ildən sonra ilk dəfə bölgəyə səfərinin təşkil olunduğunu bildirib. Ölkəmizin sərgilədiyi bu mövqeyə baxmayaraq, işğal və münaqişə dövründə fəaliyyətsizlik nümayiş etdirən bir sıra beynəlxalq təşkilatların hazırkı normallaşma gündəliyinə xələl gətirdiyi qeyd olunub. Avropa Şurası Parlament Assambleyası tərəfindən ölkəmizə qarşı atılan son addımın da bu qəbildən olan ikili standartların növbəti nümayişi kimi qiymətləndirdiyimiz diqqətə çatdırılıb.

Baş katib Martin Çunqonq ölkəmizə növbəti səfərindən məmnunluq ifadə edərək, Parlamentlərarası İttifaqın Azərbaycanla əməkdaşlığın daha da inkişafında maraqlı olduğunu bildirib. Cari ildə COP29-a ev sahibliyi edəcək Azərbaycanın uğurlu sədrliyinə inamını qeyd edən baş katib, sözügedən tədbirin təşkilatçılığı ilə bağlı öncəki sədrliklərlə yaxın təmasların qurulmasının Azərbaycanın görülən işlərə münasibətdə sistematik yanaşmanı nümayiş etdirdiyini bildirib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparılıb.

04_27 IYUl-QARA.qxd 2/1/2024 9:52 PM Page 7



## Azərbaycan ordusu dünya reytinqində hardadır? - Statistika



***Global Firepower Index 2024 dünyanın ən güclü ordularının reytinqini yeniləyib.***

"Unikal" xəbər verir ki, buna əsasən, Ermənistan 102-ci, Türkiyə 8-ci, İran 14-cü, Azərbaycan 59-cu, Gürcüstan 84-cü yerdədir.

Baltikyanı ölkələr 2024-cü ildə ən güclü ordular reytinqində 85-99-cu yerləri tutublar.

Baltikyanı ölkələrdə ən güclü ordu Estoniya (85-ci yer), Litva ordusu 86-cı, Latviya milli silahlı qüvvələri isə 99-cu yerdədir.

ABŞ ordusu birinci yerdədir. İkinci yerdə Rusiya, üçüncü yerdə isə Çin ordusu qərarlaşıb.

İlk üçlük 2022-ci ildən dəyişməz olaraq qalır.

Ukrayna ordusu Bundesveri, Almaniya silahlı qüvvələrini (19-cu) qabaqlayaraq 18-ci yerdədir. Butan ordusu 145 ölkənin yer aldığı siyahıda sonuncu yerdədir.

Reytinqin yaradıcıları izah ediblər ki, ölkələrin hərbi qüdrətini qiymətləndirərkən maliyyə göstəriciləri və dövlətlərin coğrafi mövqeyi də daxil olmaqla 60-a yaxın meyar nəzərə alınıb.

## Ölkəmizdəki avtomobillərin 45 faizdən çoxunun yaşı 20 ildən yuxarıdır

***Ölkəmizdə qeydə alınan nəqliyyat vasitələrinin 45 faizdən çoxunun istehsal ili 20 il və daha çoxdur. Bu da sözsüz ki, yol-nəqliyyat hadisələri zamanı onların ağırlıq dərəcəsinə bilavasitə təsir edir.***

"Unikal" xəbər verir ki, bunu Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin polis polkovnik-leytenantı Mübariz Ağayev nəqliyyat vasitələrinin utilizasiyası, mövcud vəziyyət və qarşıda duran məsələlərlə bağlı keçirilən dəyirmi masada deyib.

Onun sözlərinə görə, ötən il ölkəmizdə 1 milyon 774 min 77 nəqliyyat vasitəsi qeydə alınıb:

"Onlardan istehsal ili 10 ilə qədər olanların sayı 15 faiz təşkil edir, yəni 266 min 878-ə bərabərdir. İstehsal ili 10 ildən 20 ilə qədər olanların sayı 707 min 673-dür ki, bu da 39,3 faiz təşkil edir. İstehsal ili 20 ildən yuxarı olanların sayı 799 min 526-ya bərabərdir. Yəni, respublika üzrə avtomobil parkında nəqliyyat vasitələrinin 45,1 faizinin yaşı 20 ildən yuxarıdır. Hazırda ölkəmizdə hibrid avtomobillərinin sayı 42 min 461, elektrik mühərrikli avtomobillərin sayı isə 3 min 138-dir. Onların sayında kifayət qədər artım var".

## Avropa Yenidənqurma və İnkişaf Bankının rəsmiləri ilə görüş keçirildi



***İqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) İqlim Strategiyası və Çatdırılması Departamentinin icraçı direktoru Harri Boyd-Karpenterlə görüşüb.***

"Unikal" xəbər verir ki, iqtisadiyyat naziri Azərbaycanın AYİB-lə uğurlu əməkdaşlıq etdiyini və Bankla əlaqələrin inkişafına önəm verdiyini vurğulayıb.

Bildirilib ki, AYİB-lə birgə həyata keçirilən layihələr ölkəmizin dayanıqlı inkişafı istiqamətində qabaqcıl təcrübənin, müasir texnologiyaların və innovasiyaların tətbiqini sürətləndirir.COP29-un ölkəmizdə keçirilməsi Bankla qlobal iqlim strategiyası üzrə əməkdaşlığın inkişafına stimul verir.

AYİB nümayəndələri Bankın Azərbaycanla səmərəli tərəfdaşlığı davam etdirməkdə maraqlı olduğunu qeyd ediblər. Ölkəmizdə "yaşıl" enerjiyə keçid, bərpa olunan enerji mənbələrindən istifadənin artırılması istiqamətində həyata keçirilən layihələrin qurum tərəfindən dəstəkləndiyi qeyd edilib.

Görüşdə ölkəmizn ev sahibliyi edəcəyi COP29-a hazırlıq çərçivəsində görülən işlər, beynəlxalq təşkilatlarla dialoqun qurulması, enerji səmərəliliyinin təmin edilməsi üçün resursların effektiv tənzimlənməsimüzakirə olunub.

# "Sağlamlaşdırılmasına ehtiyac olan banklar da mövcuddur"

### Vüqar Bayramov: "Təklifimiz ondan ibarətdir ki, Mərkəzi Bank tərəfindən həmin bankların müflis elan olunması deyil, sağlamlaşdırılması və ya birləşdirilməsi həyata keçirilsin"

***Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, uçot dərəcəsinin azaldılmasının bank faizlərinə təsirlərindən, Azərbaycanda fəaliyyət göstərən bankların hazırkı vəziyyətindən, utilizasiya haqqının məbləğindən və bunun avtomobil bazarına necə təsir edəcəyindən danışıb.***

***-Vüqar müəllim, Azərbaycan Mərkəzi Bankı uçot dərəcəsinin 0,25 faiz bəndi azaldılaraq 8 %-dən 7,75 %-ə endirilməsi barədə qərar qəbul edib. Uçot dərəcəsinin azaldılması bank faizlərinə təsir edəcəkmi?***

-Mərkəzi Bankın uçot dərəcəsinin azaldılması ilə bağlı qərarı daha çox inflyasiyanın əvvəlki ilə nisbətən səngiməsi, 2023-cü ildə inflyasiya hədəflərinin birrəqəmli olması ilə bağlıdır. Eyni zamanda, valyuta bazarındakı stabillik 2023-cü ildə də davam edib. Bu da AMB-nin uçot dərəcəsinin dəyişdirilməsi ilə bağlı qərarına səbəb olub. Bizim monitorinqlər göstərir ki, Mərkəzi Bankın uçot dərəcəsinin dəyişməsi hələlik kredit və valyuta bazarına ciddi təsir göstərməyib. Uçot dərəcəsinin azalmasına baxmayaraq, depozit faizlərində artımlar müşahidə edirik. Hətta kredit faizlərində potensial olaraq artımların olacağı gözlənilir. Çünki son bir ayda sistem əhəmiyyətli banklar tərəfindən depozit faizlərinin artırılması müşahidə olunur. Bu da onların cəlb etdiyi vəsaitin xərcinin artmasına və o cümlədən kredit faizlərinin yüksəlməsinə gətirib çıxara bilər. Uçot dərəcəsi hələlik kredit faizlərinin azalmasına gətirib çıxarmır və kredit bazarında təsirli alət deyil. Ona görə də Mərkəzi Bank tərəfindən uçot dərəcəsinin kredit və valyuta bazarına təsirlərin artırılması ilə bağlı digər alətlərdən istifadə etməsinə ehtiyac var.

***-Məlum olduğu kimi, ötən il bir neçə bank bağlandı. Bu il banklarla bağlı gözləntilər nədən ibarətdir və hazırda fəaliyyətdə olan bankların sayı qənaətbəxşdirmi?***

-Bankların sayını maliyyə bazarı özü müəyyənləşdirməlidir. Onun inzibati yolla müəyyənləşdirilməsi heç bir halda azruolunan deyil. Təbii ki, Mərkəzi Bank problemli və öhdəliklərini yerinə yetirə bilməyən bankların lisenziyasının geri alınması ilə bağlı qərar qəbul etmək hüququna malikdir. Bizim qiymətləndirmələr göstərir ki, hələ də aktivlərində azalma müşahidə edilən bank var. Eyni zamanda, sağlamlaşdırılmasına ehtiyac olan banklar da mövcuddur. Təklifimiz ondan ibarətdir ki, Mərkəzi Bank tərəfindən həmin bankların müflis elan olunması deyil, sağlamlaşdırılması və ya birləşdirilməsi həyata keçirilsin. Bankların müflis olması dövlət üçün əlavə xərcdir. Ona görə ki, qorunan əmanətlər tam olaraq dövlət tərəfindən qaytarılır. Digər tərəfdən bu, bank sektoruna, əmanətlərin cəlb edilməsinə psixoloji olaraq neqativ təsir göstərir. Bağlanan bankların ümumi bank sektorunda aktivləri az olsa belə, psixoloji təsirləri var. Bu isə sektora inam baxımından təsiri arzuolunan deyil. Bu baxımdan, sağlamlaşdırma ilə bağlı işlər həyata keçirilməlidir. Hazırda sağlamlaşdırma dəstəyinə ehtiyacı olan banklar var.

***-Yanvarın 31-də nəqliyyat vasitələrinin utilizasiya haqqının məbləği, utilizasiyaya verilən nəqliyyat vasitəsi üçün tətbiq edilən güzəştin məbləği və birdəfəlik ödənişin həcmi təsdiqlənib. Sizcə, bu qərar avtomobillərin utilizasiya məsələsinə necə təsir göstərəcək?***

-Bizim təklifimiz ondan ibarət idi ki, ili yeni olan avtomobillər üçün utilizasiya haqqı müəyyənləşdirilməsin. Ölkəyə idxal edilən avtomobillərin son 10 ildə istehsal edilməsi ilə bağlı tələb var. Texniki baxış zamanı istehsal-buraxılış ili 4 ildən 10 ilədək olan avtomobillər üçün 10 manat müəyyənləşdirilib. Utilizasiya köhnə avtomobillərin dövriyyədən və ya avtomobil parkından çıxarılmasıdır. Onun fəlsəfəsinə uyğun olaraq daha köhnə avtomobillərlə bağlı utilizasiya haqqının müəyyənləşdirilməsi və tətbiqi həyata keçirilə bilərdi. Xüsusilə yeni maşınlar üçün belə bir güzəştin tətbiq edilməsinin tərəfdarıyıq. Düşünürəm ki, bu təklifə baxılması məqsədəuyğun olardı. Bütövlükdə, utilizasiya fondunun formalaşdırılması və avtomobillərin utilizasiyası uzun zaman alan prosesdir. Nəzərə alsaq ki, proses könüllüdür və ili köhnə olan avtomobillərin utilizasiyasından söhbət gedir. O cümlədən köhnə avtomobillərlə bağlı idxal zamanı utilizasiya haqqının alınması nəzərdə tutulur. Məqsəd avtomobil parkının yenilənməsi və daha köhnə maşınların parkdan çıxarılmasıdır. Burada vətəndaşa ödənişin edilməsi mexanizminə baxılması, bu istiqamətdə daha çox vəsaitin ayrılması, avtomobilin qiymətləndirilməsi zamanı müstəqil qiymətləndirmə mexanizminin istifadə edilməsi və buna uyğun olaraq ödənişlərin həyata keçirilməsi olduqca vacibdir. Proses yeni başlayıb və köhnə avtomobillərin utilizasiyasına gəlib çatması üçün xeyli zaman tələb edəcək.



***-Bu qərar avtomobil bazarına necə təsir göstərəcək və qiymətlərdə dəyişiklik olacaqmı?***

-Bu qərarın avtomobil bazarına xüsusi təsirləri yoxdur. Maşınların texniki baxışı zamanı müəyyənləşdirilmiş rüsum onların qiymətinə xüsusi təsir göstərməyəcək. Amma avtomobillərin idxalı zamanı haqların müəyyənləşdirilməsi onların xərcinə təsir göstərəcək. Gözləntimiz ondan ibarətdir ki, 2024-cü ildə idxal edilən avtomobillərin xərcində və buna uyğun olaraq qiymətlərində artımlar ola bilər.

***Anar Kəlbiyev***

04_27 IYUI-QARA.qxd 2/1/2024 9:52 PM Page 8



# Tağı İbrahimovun işə yaramayan təkzibi

## Nazim İbrahimovun həbs edilən qardaşı ilə bağlı yeni təfərrüatlar ortaya çıxır

***Xəbər verildiyi kimi, yanvarın 15-də paytaxtın Binəqədi rayonunda yerləşən mebel sexində 10 nəfərin ölümü, 23 nəfərin müxtəlif dərəcəli bədən xəsarətləri alması ilə nəticələnən partlayış-yanğınla bağlı Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq aparılır.***

Yola salamaq üzrə olduğumuz həftə Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumatda bildirilib ki, ilkin istintaq tədbirləri nəticəsində 2 şəxsin qanunsuz əməlləri ifşa edilib.

İstintaqla müəyyən olunub ki, partlayış taxta materiallarının emalı zamanı yaranmış taxta tozunun və kimyəvi tərkibli materialların buxar qarışığının təmizlənməməsi səbəbindən minimum konsentrasiya limitinin aşılması nəticəsində baş verib.

Belə ki, toplanmış sübutlarla "Bakı Ağac Emalı" Açıq Səhmdar Cəmiyyətinin səhmdarı və faktiki sahiblik edən vəzifəli şəxs Tağı İbrahimovun işinə laqeyd münasibət göstərib xidməti vəzifələrinin yerinə yetirməməsi, yəni müəssisədə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi işini düzgün təşkil etməməsi, yanğın təhlükəsizliyi ilə bağlı əvvəllər aşkar edilmiş ciddi qanun pozuntularının aradan qaldırılması üçün zəruri rəhbər tapşırıqlar verməməsi, ASC-ni faktiki olaraq idarə edən Toğrul Rzayevin isə yanğın təhlükəsizliyi qaydalarına cavabdeh şəxs kimi bu qaydaları pozması, yeni müəssisənin yanğın təhlükəsizliyinin, habelə yanar tullantıların və tozların təmizlənməsini təmin etməməsi səbəbindən baş vermiş partlayış-yanğın nəticəsində 10 nəfər şəxsin ölümünə, 23 nəfər şəxsin xəsarət almasına, habelə ASC-nin və ətrafda olan daşınar-daşınmaz əmlaklara əhəmiyyətli maddi ziyan vurulmasına əsaslı şübhələr müəyyənləşdirilib.

İş üzrə Tağı İbrahimov Cinayət Məcəlləsinin 314.3-cü (səhlənkarlıq, ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda), Toğrul Rzayev isə həmin Məcəllənin 225.3-cü (yanğın təhlükəsizliyi qaydalarını pozma, ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, istintaq orqanın vəsatəti, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə hər iki təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbirləri seçilib.

Xatırladaq ki, ATV-nin keçmiş prezidenti Tağı İbrahimov eyni zamanda Diasporla İş üzrə Dövlət Komitəsinin keçmiş sədri Nazim İbrahimovla qalmaqallı iş adamı İbrahim Nehrəmlinin qardaşıdır. Maraqlı burasıdır ki, İbrahim Nehrəmli yanğının baş verdiyi sexlərin ona və qardaşı Tağı İbrahimova məxsus olduğunu təsdiqləmişdi: "Bəli, sexlər bizimdir. Ağac Emalı Zavodunu özəlləşdirib, yerində Tağı İbrahimov yaşayış binası tikəcəkdi. Bununla bağlı layihə də vermişdik. Hələlik təsdiqlənmədiyi üçün ərazini sahibkara icarəyə vermişdik... Həmin sahibkar da hadisə zamanı dünyasını dəyişib..."



Lakin Tağı İbrahimov bu deyilənləri inkar etmiş, hətta qardaşını yalan danışmaqda günahlandırmışdı. Sitat: "Yanan mebel sexi mənim deyil, bunun bizimlə əlaqəsi yoxdur".

Ancaq görünən odur ki, onun bu təkzibi işə yaramayıb və ilkin istintaq baş verən faciəli yanğında T.İbrahimovun məsuliyyətini müəyyənləşdirib.

Daha bir maraqlı məqam: yuxarıdakı təkzibi səsləndirərkən Tağı müəllim Türkiyədə olduğunu bildirmişdi. Bununla belə, bir sual açıq qalırdı: o, qardaş ölkəyə nə vaxt - məlum yanğından əvvəl, yoxsa sonra gedib?

Bəzi iddialar T.İbrahimovun yanğından bir neçə gün sonra ölkəni tərk etdiyi yönündədir. Ola bilsin, elə bu da istintaqın diqqətini çəkib və şübhə doğurub. Nəticədə nəzərlər daha çox onun üzərində cəmləşib və beləliklə, Tağı müəllim Türkiyədən ya gətirilib, ya da prokurorluğun dəvəti ilə Bakıya qayıtmalı olub.

Onu da deyək ki, N.İbrahimovun son zamanlar qalmaqallarla gündəmə gələn qardaşının çətin anlarda Türkiyəyə üz tutması ilk hal deyil. Məsələn, illər öncə "Fəqan-1" MMC-nin təsisçisi Rauf Hüseynov keçmiş ortağı, həmin vaxt "İBRA Holdinq"in prezidenti olmuş Tağı İbrahimov haqda şok iddia səsləndirmişdi. R.Hüseynov "Bizim Yol" qəzetinə bildirmişdi ki, T.İbrahimov banklara və əhaliyə ödəyə bilmədiyi borclar ucbatından Türkiyəyə sığınıb: "O, "Nikoil Bank"dan xeyli kredit götürüb, aldığım məlumata görə, kredit məbləği 12-13 milyon manat civarındadır və pul "Nehrəm Holding" üçün alınıb. Borcunu ödəyə bilmədiyi üçün İstanbula qaçıb. Bankın borcunu qaytara bilmədiyi üçün binanın tikintisini bank üzərinə götürüb".

Yeri gəlmişkən, İbrahim Nehrəmli yuxarıda bəhs olunan açıqlamasında yanğının baş verdiyi sexlərin qardaşı ilə bərabər, özünə də məxsus olduğunu söyləmişdi. Yəni ortaqlıqdan bəhs etmişdi. Bu mənada indi yaranan suallardan biri də budur: istintaqın gedişi onun üçün də arzuedilməz sonuclar doğura bilərmi? Bu sual yəqin ki, qarşıdakı günlərdə cavabını tapacaq.

Hələliksə bir o məlumdur ki, Cinayət Məcəlləsinin 314.3-cü (səhlənkarlıq, ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə ittiham edilərək istintaqa cəlb edilən T.İbrahimov barədə ittihamlar təsdiqini taparsa, ona 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası veriləcək.

***Sənan Mirzə***

# Parlamentin İntizam komissiyası yenidən formalaşdırıldı



***Milli Məclisin iclasında İntizam komissiyası yenidən formalaşdırılıb.***

"Unikal" xəbər verir ki, "Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi" səsverməyə çıxarılaraq qəbul edilib.

Layihəyə əsasən, İntizam komissiyasının tərkibi aşağıdakı kimi olacaq:

1. Ağamalı Fəzail Rəhim oğlu;
2. Həsənov Nurlan Urfan oğlu;
3. Həsənova Afət Əbil qızı;
4. İbrahimqızı Məlahət İbrahim qızı;
5. İbrahimov Eldar Rza oğlu;
6. Qafarov Kəmaləddin Nəsrəddin oğlu;
7. Məhəməliyev Nəsib Məhəmməd oğlu;
8. Məmmədov Hikmət Baba oğlu;
9. Məmmədov Məşhur Şahbaz oğlu;
10. Möhbalıyev Səttar Suliddin oğlu;
11. Səfərov Nizami Abdulla oğlu.

Qeyd edək ki, İntizam komissiyasının mərhum deputatı Madər Musayevi Kəmaləddin Qafarov əvəzləyib.

***Anar Kəlbiyev***

# "Gəlir vergisinin artırılması cəmiyyətdə narazılıq yaradıb" - Əli Məsimli



***Vergi Məcəlləsində mikro sahibkarlar üçün nəzərdə tutulmuş 5 %-lik gəlir vergisinin 20 %-ə qaldırılması cəmiyyətdə narazılıq yaradıb.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən plenar iclasında deputat Əli Məsimli deyib.

"Təklif edirəm ki, monitorinq aparılsın və həmin dəyişikliyə yenidən baxılsın, mikro sahibkarlar üçün güzəştin verilməsi bərpa edilsin. Çünki məhz mikro və kiçik sahibkarlığın dairəsinin genişləndirilməsi, Azərbaycanda onun özünə layiq səviyyədə yer tutması ümumi iqtisadi keyfiyyətin artırılmasında mühüm rol oynayacaq", -deyə deputat vurğulayıb.

# MSK seçki bülletenlərinin DSK-lara təhvil verilməsini başa çatdırıb

***Fevralın 7-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən seçki bülletenlərinin dairə seçki komissiyalarına (DSK) paylanması prosesi başa çatıb.***

"Unikal" Secki-2024.az saytına istinadən xəbər verir ki, seçki bülletenləri Naxçıvan Muxtar Respublikasındakı seçki dairələri, işğaldan azad olunmuş ərazilərdəki seçki məntəqələrinin aid olduğu seçki dairələri, həmçinin respublikanın ucqar bölgələrini əhatə edən seçki dairələri də daxil olmaqla, ölkənin digər bütün seçki dairələrinə təhvil verilib.

Bununla da proses tam yekunlaşdırılıb.

Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada seçki bülletenləri dairə seçki komissiyalarına paylandıqdan sonra, səsvermə gününə azı 3 gün qalmışadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına verilməlidir.

Qeyd edək ki, yanvarın 24-dən etibarən seçki bülletenlərinin çapına başlanılıb və 6 524 203 seçki bülleteni çap olunub.

# Deputat yollarda sürət həddinin endirilməsinə etiraz etdi



***"Bizim yollar dəyişib, insanlar artıb. Yol və yollardan istifadə ilə bağlı müəyyən qaydalar tətbiq olunarkən ilk olaraq vətəndaşların rahatlığı, rifahı nəzərə alınmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Hikmət Məmmədov deyib.

"Yollarda sürət həddinin müəyyənləşdirilməsi ilə bağlı məsələ var. Sürət məhdudiyyətləri qoyanlar hesabat, müqayisəli təhlil təqdim etsinlər ki, sürət həddi endiriləndə nə qazanırlar, qəzalar nə qədər azalır, vətəndaş nə qədər vaxt qazanır? Sürət 110 saatda km olanda qəza nə qədər olub, saatda 90 km olanda nə qədər qəza baş verib? Zəhmət çəkib hesabatla çıxış etsinlər. Sürət həddi aşağı saldıqda yanacaq sərfiyyatı artır, özümüz-özümüzü zəhərləyirik. Sürət həddinin azaldılması vətəndaşlarda stress də yaradır və həm də sağlamlığımıza təsir edir. Eyni məsələlər Bakı-Quba, Bakı-Gəncə yoluna da aiddir. Sürət hədddi bu yollarda da 110-dan 90-a endirilib. İkinci məsələ indi şəhərdə yolları zolaqlamaq dəbi düşüb. Deyirlər avtobus yoluna girmək olmaz. Bu hərəkət yolun yükgötürmə qabiliyyətini artırmır, yollarda tıxacı azaltmır. Bu yaxınlarda Bakı -Sumqayıt yolunda yeni zolaq yaradıblar. Biz baxsq görərik ki, bu tıxacları artırıb, əlavə problem yaradırlar. Velosiped zolaqları yaradırıq. Qış Parkının yanında yeni velosiped yolu çəkiblər. Qış Parkıyla gedirsiniz, birdən zolaq qırılır, çünki kiminsə zirzəmisi, balkonu qabağa çıxır. Velosiped istifadəçisi də məcburdur ki, qırılan hissələrdə yenə avtomobil yoluna çıxsınlar. Bununla nəyə nail olmaq istəyirik bəlli deyil. Yol zolağı genmişləndirilmədən belə zolaqları çəkmək olmaz. Bununla məşğul olan subyekt zəhmət çəksin hesabatı olsun. Kor-korana hər yerdə var, bizdə də olsun prinsipiylə yanaşmaq olmaz",- deyə o bildirib.

# Təcridxanaya mandarinin içində narkotik keçirmək istədi

***Ədliyyə Nazirliyi Penitensiar xidmətin əməliyyat aparatının əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı istintaq təcridxanasına narkotik və psixotrop maddələrin keçirilməsinin qarşısı alınıb.***

"Unikal" Penitensiar xidmətə istinadən xəbər verir ki, həbs edilmiş şəxs Fərid Arzuman oğlu Məmmədova anası Süsən Fəxrəddin qızı Abbasova tərəfindən gətirilmiş sovqatdakı iki ədəd mandarinin içərisində xüsusi üsulla gizlədilmiş bükülülərdə 0,461 qram marixuana və 1,268 qram metamfetamin aşkar olunub.

Faktla bağlı araşdırma aparılır.

# "Bələdiyyə sədri seçicilər tərəfindən seçilsin" - Siyavuş Novruzov



***"Türkiyədə 800, bizdə isə 1600 bələdiyyə fəlaiyyət göstərir. Bələdiyyələrin sayları çoxdur, azaldılmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin iclasında parlamentin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov deyib.

O təklif edib ki, bələdiyyə sədrləri üzvlər tərəfindən deyil, seçicilər tərəfindən seçilsin: "Bələdiyyə sədrlərinin də xalq tərəfindən seçilməsinin Məcəllədə əksini tapmasını istəyirik. Digər məsələ odur ki, namizəd olmaq üçün tələb olunan sənədlər çoxdur. Prezidentliyə namizədlə bələdiyyə üzvünə namizədlər təxminən eyni sənədlər təqdim etməli olur. Bu cür sənədlərin yığılması çətinlik yaradır. Seçki Məcəlləsinə baxılmalıdır. Növbəti seçkilərdə azad edilmiş ərazilərimizdə də biz bələdiyyələri formalaşdıracağıq".

***Anar Kəlbiyev***

# Azərbaycanın 103 illik sığorta şirkətinin gözlənilən sonu

## İki il öncə yeni sədrin təyin edildiyi "Azərsığorta" niyə ləğv olundu?

***Yanvarın 31-də ölkə başçısı "Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin və "Azərsığorta" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanının ləğv edilməsi barədə" Fərman imzalayıb. Fərmana əsasən, Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti ləğv edilib.***

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan İnvestisiya Holdinqinə bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Xatırladaq ki, "Azərsığorta"




Dövlət Sığorta Kommersiya Şirkəti 1921-ci il oktyabr ayının 21-də SSRİ Maliyyə Nazirliyinin idarə etdiyi "Qosstrax" tərəfindən tənzimlənən yerli Dövlət Sığorta İdarəsi ("Azqosstrax") kimi fəaliyyətə başlayıb. 1991-ci ildə isə "Azqosstrax"ın bazası əsasında Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti yaradılıb.

Prezident İlham Əliyevin 2020-ci il 07 avqust tarixli Fərmanına əsasən "Azərbaycan İnvestisiya Holdinqi" təsis edilmiş və 2021-ci il 22 sentyabr tarixli, 2907 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin idarə olunmasının əsasları "Azərbaycan İnvestisiya Holdinq"inin səlahiyyətinə verilib."Azərsığorta" brendi altında fəaliyyətini davam etdirən Dövlət Sığorta Şirkəti bütün ölkə üzrə geniş filial şəbəkəsinə malik idi. Lakin son illərdə onun adı ətrafında qalmaqallı xəbərlər yayılmağa başlamışdı. Hələ 2021-ci ilin yazında şirkətin 20-yə yaxın rayon filialının müdiri rəhbərlikdən dövlət qurumlarına şikayət etmişdilər. Həmin vaxt musavat.com-un əldə etdiyi məlumata görə, "Azərsığorta" işçilərin minimum əmək haqqını ləğv edib. İşçilərə yalnız toplanan sığorta haqqının müəyyən faizi qədər ödəniş edilməsi barədə qərar verib. Bildirilirdi ki, şirkətin ovaxtkı rəhbəri Aftandil Hacıyev və müavinləri yanvar ayından etibarən bu qərarı qəbul ediblər.

Məlum şikayəti ünvanlayan narazı işçilər bildirmişdilər ki, rayon filiallarına ştat cədvəli, xərclər smetası göndərilmədiyi üçün işçilərə maaş verilməyib. Nəticədə "Azərsığorta"nın Göygöl, Salyan, Astara, Oğuz, Balakən, Qəbələ, Ağdaş, Qazax, Samux, Sabirabad rayon filiallarının rəhbərləri Maliyyə Nazirliyinə, Mərkəzi Bank və Nazirlər Kabinetinə teleqram göndəriblər. Bu müraciətləri Maliyyə Nazirliyi araşdırılması üçün Azərbaycan İnvestisiya Holdinqinə göndərib. Ən maraqlısı isə o idi ki, "Azərsığorta" rəhbərliyi paytaxtın rayon filiallarını köhnə tarixli qərarlarla bağlamışdı.

Həmin vaxt iddialarla bağlı şirkətdən bildirilmişdi ki, "Azərsığorta"nın idarəetmə strukturu korporativ qaydalara uyğunlaşdırılırmış. Şirkətdə beynəlxalq təcrübəyə əsaslanan, eləcə də müasir standartlara cavab verən yeni korporativ idarəetmə strukturu təsdiqlənibmiş. Sitat: "Bütün bu tədbirlərin davamı olaraq, bir neçə istiqamətdə aparılan uğurlu işlərdən biri də portfelin sağlamlaşdırılması və bəzi xərclərin azaldılmasıdır. Təbii ki, sağlamlaşdırma və izafi xərclərin aradan qaldırılması üçün bəzi rayon filiallarının bağlanması qərara alınıb. Filialların bağlanmasına əsas səbəblərdən biri kimi filialların aylıq xərclərinin gəlirlərini daha çox üstələməsi olub. Bu isə yekunda şirkətin gəlirlərinə ciddi təsir etməklə zərərlə işləməsinə gətirib çıxara bilərdi. Yeni yanaşmaya əsasən, regionlarda və paytaxt Bakıda yerləşən bəzi filialların hüququ statusu dəyişəcək. Bağlanmış filiallar gəlirlilik baxımından daha səmərəli fəaliyyət göstərəcəyi halda nümayəndəlik statusu daşıyacaq".

Lakin belə görünür bütün bu cəhdlər nəticə verməyib. Belə ki, həmin ilin sonunda - dekabrın 7-də şirkətə yeni sədr təyin edilib. Bu posta 2013-2014-cü illərdə Azərbaycan Respublikası maliyyə nazirinin köməkçisi, 2015-2017-ci illərdə "Azər-Türk Bank" ASC-nin İdarə Heyətinin sədri və 2020-ci ilin sentyabr ayından Milli Depozit Mərkəzinin İdarə Heyətinin sədr müavini olmuş Fərhad Adıgözəlov gətirilib.

Göründüyü kimi, Adıgözəlovun təyinatının üstündən 2 il kimi qısa vaxt keçib və artıq Dövlət Sığorta Kommersiya Şirkətinin ləğvinə qərar verilib. Belə güman etmək olar ki, Fərhad müəllimin "Azərsığorta"ya rəhbərliyi də onun işində köklü müsbət dəyişikliyə gətirib çıxarmayıb. Bu mənada onun ləğvi təəccüb doğurmur.

Eyni zamanda bir məqamı da unutmayaq ki, son vaxtlar haqqında çoxsaylı şikayətlər səsləndirilən Dövlət Sığorta Kommersiya Şirkəti eyni zamanda zərərlə işləməsi ilə gündəmdə idi. Məsələn, 2021-ci ili 14 milyon 295 min manat zərərlə başa vuran "Azərsığorta" 2022-ci ili 2,3 milyon manat xalis mənfəətlə bitirsə də, onun yığılmış zərəri 22,5 milyon manatla ifadə olunurdu.

Yeri gəlmişkən, son bir ildə Azərbaycanda avtomobillərin icbari sığortası üzrə ən çox şikayət edilən sığorta şirkətlərinin ilk "beşliyində" "Azərsığorta" da yer alırdı.

***Toğrul Əliyev***

04_27 IYUI-QARA.qxd 2/1/2024 9:52 PM Page 10



# Baba Tağıyevin tez parlayıb tez sönən ulduzu...

## Sabiqlərin izi ilə: “Avropa qapıları” sahibinin üzünə karyera qapıları niyə bağlandı?

***”Unikal” qəzeti keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. ”Sabiqlərin izi ilə” adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz sabiq deputat və biznesmen Baba Tağıyev haqqındadır.***

Bir zamanlar adı mətbuat səhifələrindən düşməyən, haqqında çoxsaylı iddialar dolaşan Baba Tağıyev 2005-ci ildə II çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü olub. Lakin onun deputatlıq macərası cəmi 5 illə kifayətləndi. Növbəti parlament seçkilərində çox istəməsinə baxmayaraq yenidən millət vəkili mandatı qazanmaq arzusu elə arzu olaraq qaldı. Halbuki 2010 seçkilərində gurultulu təbliğat kampaniyasına start vermiş, hətta bir il öncə - 2009-cu ildə ”İrəli Azərbaycan” İctimai Birliyini yaradaraq ona sədrlik etməyə başlamış, bununla da siyasi iddialarını açıq biruzə vermişdi.



Lakin onun müxtəlif mövzularda qalmaqallı, qeyri-korrekt açıqlamaları, üstəlik, 2005-ci ildə mandat qazandığı 44 saylı Sumqayıt-Abşeron seçki dairəsindəki seçicilərin ondan narazılığı sonda Baba Tağıyevin yenidən deputat seçilmək niyyətinin üstündən xətt çəkdi. Bundan başqa, Milli Məclisin plenar iclasında deputatlar Hüseyn Abdullayevlə Fəzail Ağamalı arasında qalmaqal yaranan zaman icazəsiz və dəxilsiz şəkildə tribunaya qalxıb çıxış etməyə cəhd göstərməsi də onu siyasi baxımdan əməllicə gözdən salmışdı. Ümumiyyətlə, Baba müəllim danışıqlarında, davranışlarında siyasi və ictimai fiqur kimi təcrübəsiz, hazırlıqsız təsir bağışlayır, hətta bir çox hallarda ictimai rəydə gülüş hədəfinə çevrilirdi.

Hazırda 63 yaşı olan sabiq deputat və biznesmen 1985-ci ildən Abşeron rayonunda bioloji laboratoriyanın aqronomu, baş aqronomu, nəhayət direktor müavini işləyib. 1990-cı ildən Respublika Mərkəzi Laboratoriyasının öncə direktor müavini, sonra da baş direktoru vəzifələrində çalışıb.

O, 1989-cu ildə özəl sahibkarlıq fəaliyyətinə başlayıb. On il sonra - 1999-cu ildə isə ”Tağıyev” şirkətlər qrupunu yaradıb. Bu şirkətlər qrupuna daxil olan “Avropa qapıları”nın adı bir zamanlar çox məşhur idi. Daha dəqiq desək, ”Tağıyev” şirkəti həmin adla qapı, pəncərə, eləcə də ev, ofis və bağ evləri üçün mebellər, plastik və dəmir məhsulların istehsalı və satışı ilə məşğul olurdu. “Olurdu” deyirik, çünki adıçəkilən şirkətin hazırda varlığı ilə yoxluğu o qədər də bəlli deyilg

Əslində B.Tağıyevin ulduzunun parlamasında müstəsna rolu məhz “Avropa qapıları” oynayıb. Lakin 2010-cu ildə B.Tağıyev mandatını itirdikdən sonra “Avropa qapıları” üçün də işlər yolunda getməməyə başlayıb və onun fəaliyyəti xeyli dərəcədə zəifləyib. Bir az da dəqiqləşdirsək, 2013-cü ilin may ayında İqtisadi İnkişaf Nazirliyi ”Avropa qapıları” adı ilə qapı və mebel istehsal edən ”Tağıyev” şirkətinin istehlakçı hüquqlarını pozduğuna dair açıqlama yaydıqdan sonra Baba müəllimin biznesində çöküş başlandığı deyilir. Qeyd edək ki, həmin vaxt aparılmış yoxlama nəticəsində sözügedən şirkət tərəfindən vətəndaşlar Yarməmməd Əhmədov və Məhəmmədəli Əfəndiyevlə bağlanmış müqavilələrdə nəzərdə tutulan müddətlərə əməl olunmadığı, ödəniş şərtləri pozularaq hazırlanmış məhsulların dəyərinin istehlakçılardan onların faktiki ünvanında deyil, yaşadıqları binanın həyətində tələb olunduğu müəyyənləşdirilmişdi. Aşkar edilmiş pozuntularla əlaqədar müəssisəyə mövcud qanunvericiliyə uyğun olaraq 4000 manat məbləğində cərimə tətbiq edilmişdi. Düzdür, bu cərimə iri bir şirkət üçün onu sarsıdacaq bir məbləğ sayıla bilməzdi, lakin bir şey aydın olurdu ki, Baba müəllimin qarşısında qapılar artıq əvvəlki kimi taybatay açıq deyil...

Yeri gəlmişkən, Baba müəllimin siyasi karyera baxımından böyük ümidlərlə yaratdığı ”İrəli Azərbaycan” İctimai Birliyinin fəaliyyəti isə ümumiyyətlə qısa olub. 2010-cu seçkilərinin ardından bu qurumun adı, demək olar, eşidilməyib.

Hətta 2010-cu illərin ortalarında B.Tağıyevin ölkəni tərk etməsi, xarici ölkələrdən birində biznes fəaliyyəti ilə məşğul olmasına dair informasiya yayılmışdı. İddia olunurdu ki, sabiq millət vəkili və biznesmen “Avropa Qapıları”nı, eləcə də digər biznes strukturlarını sataraq, birdəfəlik Azərbaycanı tərk edib. Lakin Tağıyev həmin iddianı tələm-tələsik yalanlamışdı: “Sabiq millət vəkili bildirib ki, onun ölkəni tərk etmək niyyəti yoxdur: “Mən niyə Azərbaycanı tərk etməliyəm? Mən Azərbaycanda doğulmuşam, Azərbaycanda yaşayıram, Azərbaycanda da öləcəm. Heç yerə getmək fikrim də yoxdur”.

“Xaricdə biznes fəaliyyəti ilə məşğul olmağınız xəbəri doğrudurmu” sualının cavabında isə o bu barədə danışmaq istəmədiyini demişdi.

Əslində sabiq deputat və biznesmenin özü də son illərdə ortalarda görünmür. Onun və holdinqinin adı axır vaxtlarda yazılı və elektron mediada çəkilmir desək, yəqin yanılmarıq. Yalnız bir neçə il öncə xəbər yayıldı ki, ”Tağıyev şirkəti” inzibati qaydada cərimə edilib.

Belə ki, şirkət İnzibati Xətalar Məcəlləsinin 428.7.1-ci (müvafiq icazə, texniki şərtlər pasportu və icazə müqaviləsi olmaması, həmçinin onların tələbləri pozulmaqla açıq məkanda reklam yerləşdirilməsi) maddəsi ilə təqsirli bilinib (bu əmələ görə, həmin vaxt hüquqi şəxslər üçün beş min manatdan on min manatadək məbləğdə cərimə nəzərə tutulduğunu da xatırladaq).

Hazırda sabiq deputat və biznesmenlə bağlı maraq doğuran sual budur: o indi haradadır, şəxsi biznesinin durumu necədir, ən əsası isə işlərinin yağ kimi getdiyi keçmiş günlər üçün qəribsəmir ki?!

***Toğrul Əliyev***

# "Sanksiyalardan qorxmaq lazım deyil" - Aqil Abbas



***”Bizi sanksiya ilə hədələyirlər. Bu sanksiyalardan qorxmaq lazım deyil”.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Aqil Abbas deyib.

Deputat bildirib ki, Fransa Prezidenti Emmanuel Makron Azərbaycana gəlib görsün ki, ermənilər burada nələr törədib.

“Əslində sanksiyaların tətbiqi həmin ölkələrin inkişafı deməkdir. Çünki insanlar daha ağıllı düşünməyə məcbur olurlar. Misal olaraq, İrana 40 ildir sanksiya tətbiq edilir, halbuki ən uzaq vuran ballistik raketləri istehsal edir. Ona görə də sanksiya ilə bizi qorxutmaq lazım deyil. “İt hürər, karvan keçər” misalını unutmayaq. Qoy hürsünlər”.

***Anar Kəlbiyev***

# Hesablama Palatası Əməliyyat Planını təsdiqlədi




***Hesablama Palatasının strateji planının 2024-cü il üzrə Əməliyyat Planı, Monitorinq Çərçivəsi və Risk Reyestrinin layihələri təsdiq edilib.***

Bu barədə “Unikal”a Palatadan bildirilib.

Belə ki, qurumda sədr Vüqar Gülməmmədovun rəhbərliyi ilə Kollegiya iclası keçirilib. İclasda Palatanın strateji planının 2023-cü il üzrə Əməliyyat Planının və Monitorinq Çərçivəsinin icra vəziyyəti barədə, habelə keyfiyyətə nəzarətlə bağlı illik hesabat təqdim edilib. Əməliyyat planında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyətinə təsir edən əsas risklər səsləndirilib. Hesablama Palatasının Kollegiyası həmin məsələlərin fəaliyyət haqqında Hesabata daxil edilməsinə qərar verib.

İclasda sözügedən sənədlərdə nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətli icrası məqsədilə zəruri işlərin görülməsi, əhəmiyyətli hesab olunan risklərin prioritetləşdirilməsi və mütəmadi izlənilməsi, məsul subyektlərin yarımillik və illik əsasda hesabatlılığının təmin edilməsi ilə bağlı tapşırıqlar verilib. Həmçinin gündəlikdə dayanan cari məsələlərə baxılıb.

# “Qanunlar elə yazılır ki, başa düşmürük!” - Sabir Rüstəmxanlı



***Qanunlar elə yazılır ki, bəzən biz başa düşmürük. Bu barədə Milli Məclisin yaz sessiyasının ilk iclasında deputat Sabir Rüstəmxanlı bildirib.***

“Başa düşürəm, qanunların dili fərqlidir. Amma bunu normal başa düşüləcək şəkildə yazmaq lazımdır. İnsanlar qanunları başa düşmür, elə olur ki, heç özümüz də anlamırıq. Bunu normal dildə yazmaq lazımdır ki, insanlar başa düşsün”,- deyə o bildirib.

# "AŞPA aşpaz funksiyasını yerinə yetirir" - Deputat

***”AŞPA bu gün aşpaz funksiyasını yerinə yetirir. Onların qazanında ədalətdən başqa hər şey qaynayır”.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisin dünən keçirilən iclasında deputat Elşən Musayev deyib.

Deputat bildirib ki, bizimlə heç kim hədə jarqonu ilə davrana bilməz: ”Üzərimizə dil uzadanların dili elə uzandığı yerdən də kəsiləcək”.




## Bakı Təşəbbüs Qrupu Korsikada fəalların saxlanılmasını pisləyib - BƏYANAT

***Bakı Təşəbbüs Qrupu "Nazione" hərəkatının Baş Təsis Yığıncağının uğurla keçirilməsindən sonra Fransa polisi tərəfindən hərakatın müstəqillik tərəfdarı olan fəallarının və onların ailə üzvlərinin qeyri-qanuni saxlanılmasını qətiyyətlə pisləyir.***

"Unikal" xəbər verir ki, bu barədə təşkilatın bəyanatında bildirilib.

Qeyd olunub ki, Korsikada 700-ə yaxın insan yanvarın 28-də müstəqillik tərəfdarı olan strukturları və fəalları birləşdirən və müstəmləkə hökmranlığına qarşı mübarizəyə hazırkı və gələcək sadiqliyini təsdiqləyən yeni bir "Nazione" hərəkatını təsis edib:

"Korsikalılar azad şəkildə istəklərini ifadə etdikdən 2 gün sonra, yanvarın 30-da "Nazione"-nin iki fəalı Borgu hərbi düşərgəsində nəzarət altına alınmışdır. Onların ailə üzvləri və digər bir fəalı günortadan sonra Bastia polis bölməsinə çağırılmışdır.

Fəalları tutmaq üçün Fransanın axtarış və əməliyyat qrupu tərəfindən seçilmiş metodlar: sındırılmış qapılar, dağıdılmış evlər, yerə atılan və bunun yarada biləcəyi xəsarət riski ilə övladlarının gözü qarşısında saxlanılan valideynlər özünü insan hüquqlarının vətəni kimi təqdim edən bir ölkə üçün biabırçılıqdır. Polisin qanunsuz təqibləri davam edir və Korsika xalqını qorxutmaq məqsədi daşıyır. Beləliklə,

- Biz Fransa hüquq-mühafizə orqanlarının qeyri-qanuni hərəkətlərini qətiyyətlə pisləyirik;
- Biz Fransa hakimiyyətini ədalət və insan hüquqları prinsiplərinə hörmət etməyə və gələcəkdə bu cür tədbirlərin təkrarlanmamasını təmin etməyə çağırırıq. Korsika xalqının sərbəst toplaşmaq azadlığı və istəklərini sərbəst şəkildə ifadə etmək hüququ Fransa hökuməti tərəfindən təmin edilməlidir;
- Fransa hökumətini müstəmləkə xalqlarına təzyiq göstərməkdən çəkinməyə çağırırıq ;
- Bütün saxlanılanların dərhal sərbəst buraxılmasını tələb edirik ;
- Digər qeyri-hökumət təşkilatlarını və siyasi hərəkatları bu bəyanata qoşulmağa və "Nazione" hərəkatına dəstək verməyə dəvət edirik".

## "Qida zəhərlənmələrindən ölənlərin sayı artır" - Deputat



***"Son zamanlar qida zəhərlənməsi halları çoxalıb. Bu məsələdə statistika düzgün aparılmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Azay Quliyev deyib.

O bildirib ki, qida zəhərlənmələrindən ölənlərin sayı artmaqdadır: "Bu kimi halların səbəbləri ilə bağlı ictimaiyyətə məlumat verilməlidir".

A.Quliyev eyni zamanda ki, AQTA tək qidanın təhlükəsizliyinə yox, eləcə də keyfiyyət məsləsinə də fikir verməlidir: "Bu gün bazarda keyfiyyəti aşağı və təhlükəli qida məhsulları satılır. Bundan başqa, keyfiyyətsiz və təhlükəli qidalar sərhədi keçərək ölkəyə daxil olur. Bu məsələyə ciddi yanaşmaq lazımdır".

***Anar Kəlbiyev***

# İlqar Mustafayevin işdən çıxarılmasından sonra ortaya çıxan sual

## Dənizkənarı Bulvar İdarəsinin yeni rəhbəri qiymətlərlə bağlı narazılıqları aradan qaldıra biləcəkmi?

***Ölkə başçısı yanvarın 29-da İlqar Mustafayevi Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri postundan azad edib. Prezidentin başqa bir sərəncamı ilə həmin posta Xanlar Ağalarov təyin olunub. Xanlar Ağalarov bundan öncə Mədəniyyət Nazirliyinin Aparat rəhbəri vəzifəsində çalışıb.***

Xatırladaq ki, Bakının Bulvarı maddi mədəniyyətimizin əsrarəngiz nümunəsi olmaqla yanaşı, onun həm tarixi, həm də müasir simasını əks etdirən xüsusi təbii komplekslərdən biridir. Dənizkənarı bulvarın təbii landşaftının bərpası, onun tarixi simasının saxlanılması, ərazinin zəngin florasının inkişaf etdirilməsi, bulvarın mühafizə olunması, burada sosial-mədəni tədbirlərin həyata keçirilməsi məsələlərinin həllini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci il yanvarın 10-da Dənizkənarı Bulvar İdarəsinin yaradılması haqqında Fərman imzalayıb. Bu Fərmandan sonra Dənizkənarı Milli Parkın əsaslı şəkildə abadlaşdırılmasına başlanılıb. Görülən abadlıq işləri sayəsində parkın yaşıllıq zolağı xeyli genişləndirilib. Burada yeni ağac və gül növləri əkilib. Onların arasında olan ekzotik bitkilər (palmalar, Argentinadan gətirilmiş baobablar, Meksikadan gətirilmiş kaktuslar və s.) bulvarın gözəlliyini daha da artırır. Ərazidə yeni attraksionlar və kino nümayişi ilə bağlı məkanlar da var. Burada özünəməxsus istirahət növü olan dəniz gəzintisi də təşkil olunur.



Dənizkənarı Bulvar İdarəsinin rəsmi saytında oxuyuruq ki, Prezident İlham Əliyevin tapşırığı və rəhbərliyi ilə Avroviziya musiqi yarışması ərəfəsində Dənizkənarı Milli Parkın ərazisinin Bakı İdman Sarayından Dövlət Bayrağı Meydanına qədər uzadılması işləri tamamlanıb. Şəhər sakinlərinin istifadəsinə verilən Yeni Bulvarın ərazisi 1,8 kilometr, sahəsi 17,26 hektardır. Bu ərazidə tarixi əhəmiyyətli məkanlar yaradılıb. Dövlət Bayrağı Meydanı, Dövlət Bayrağı Muzeyi və Avroviziya müsabiqəsinin keçirildiyi idman-əyləncə kompleksi olan Bakı Kristal Zalı da bu məkanların sırasına daxildir.

2015-ci ildə Birinci Avropa Oyunları ərəfəsində bulvarın iki istiqamətdə genişləndirilməsi işi başa çatıb. Birinci istiqamət Dövlət Bayrağı Meydanından (Daş Salnamə Muzeyinin qarşısından) Bibiheybət istiqamətində genişləndirilən "Bayıl Bulvarı", digər istiqamət isə Dəniz Ticarəti Limanından "Bulvar" hotelə kimi uzadılan Ağ Şəhər Bulvarıdır. Bakı "Ağ Şəhər" Bulvarının uzunluğu 2,7 kilometr, sahəsi 34,6 hektardır. "Bayıl Bulvarı"nın uzunluğu 9,2 kilometr, sahəsi 123,394 hektardır. Yeni bulvar ərazisində yenidənqurma və abadlıq işləri nəticəsində müxtəlif istirahət və iaşə obyektləri ilə yanaşı müasir mədəniyyət obyektləri də inşa edilib. Bu gün Bakı Bulvarının ərazisi 215.164 hektar olmaqla, uzunluğu 16,7 kilometrə çatdırılıb. Qərblə Şərqin memarlıq elementlərini özündə birləşdirən Dənizkənarı Milli Parkda tikinti və abadlıq işləri davam etdirilir.

Bunlarla yanaşı, son illərdə Dənizkənarı Bulvar İdarəsindən müəyyən şikayətlərin olduğunu da vurğulamaq lazımdır. Belə ki, 2016-cı ildə Əfqan Şahmarov adıçəkilən idarənin rəisi vəzifəsindən azad edilib, həmin posta İlqar Mustafayev təyin olunub. Sonuncunun rəhbərliyi dövründə belə şikayətlər daha da intensivləşib. Söhbət ilk növbədə bulvar ərazisindəki obyektlərdə qiymətlərin hədsiz baha olmasından gedir.

Uzağa getməyək, elə ötən ilin yayında bu bahalıq əməlli-başlı narazılığa səbəb olmuşdu. Belə ki, yerli KİV-in araşdırmaları zamanı aydınlaşmışdı ki, Dənizkənarı Milli Parkda ən çox tələbat olan 0,5 litrlik sular 50 qəpikdən 60 qəpiyə qədərdir. Xatırladaq ki, suyun öz qiyməti 20 qəpikdir. Çips və müxtəlif xırdavatlar 80 qəpikdən 2 manata qədər, "pambıq" 1 manatdır. Adətən ən çox satılan popkorn isə 1 manatadır. Kafe və restoranlarda isə qiymətlər insanı yeməmişdən "doyurur". Bir şiş kabab 6 manatdan yuxarı, bir stəkan təbii şirə 2 manat, meyvə salatı 10 manat, çay dəstgahı 12-15 manat civarında dəyişir. Bulvar ərazisində siqaret almaq istəyənlər gərək bir az çox pul ödəsinlər. Hər siqaretin üstünə 40 qəpik pul qoyulur.

Əyləncəyə gəlincə, gəmi ilə gəzmək istəyənlər 1 saata 4 manat, uşaqlar üçün 2 manat pul ödəməlidir. Yarım saat gəmidə vaxt keçirtmək istəyənlər 2 manat, uşaqlar üçün 1 manat xərc çəkməlidir. Ən çox karusel və attraksionlarda əylənməyi üstün tutanlar 6 dəqiqə üçün pul ödəməlidir. Bu qiymət, demək olar ki, bütün karuseldə belədir. Yalnız çox da maraq kəsb etməyən karusellərdə qiymət nisbətən aşağıdır. Uşaqlar üçün nəzərdə tutulan karusel isə 4 dəqiqəyə 1 manatdır.

Ümumiyyətlə isə araşdırmalardan belə məlum olmuşdu ki, Dənizkənarı Milli Parkda 2 nəfər orta səviyyəli dincəlmək üçün ən azı 50 manat xərcləməlidir.

Yüksək qiymətlərlə bağlı narazılıqlara isə Dənizkənarı Bulvar İdarəsindən ənənəvi cavab verilir. Bildirilir ki, onlar bulvar ərazisindəki obyektlərin fəaliyyətinə müdaxilə edə bilməzlər, çünki bazar iqtisadiyyatı şəraitində qiymətləri sahibkarlar özləri müəyyənləşdirirlər.

İndi İlqar Mustafayevin Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri postundan azad edilməsində yüksək qiymətlərlə bağlı narazılıqların rol oynayıb-oynamadığını söyləmək çətin olsa da, paytaxt sakinlərini düşündürən sual başqadır: Xanlar Ağalarovun təyinatı bu bahaçılığa son qoyacaqmı?

Yaşayıb görərik...

***Sənan Mirzə***

04_27 IYUl-QARA.qxd 2/1/2024 9:52 PM Page 12



**5.3.2. fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda söz və fikir azadlığına məhdudiyyət yoxdur!

## Aydın Quliyev: "Azərbaycan dövləti ölkədə söz və media azadlığı istiqamətində müsbət addımlar atır"



***Mətbuat cəmiyyətin aynasıdır deyirlər. Cəmiyyət necədirsə, mətbuat onu özündə əks etdirir. Demokratik dövlətlərdə cəmiyyətin inkişafı həm də azad mətbuatdan keçir. Azad mətbuatın olduğu ölkələrdə hüquqi dövlətin, qanunun aliliyinin qorunması, cəmiyyətdəki nöqsanların daha çevik aradan qaldırılmasında medianın rolu danılmazdır.***

Azərbaycan da azad sözün təmin edildiyi ölkələrdəndir. İnternetin, sosial şəbəkələrin olduğu dövrdə hər kəs öz fikrini sərbəst ifadə edə bilir. Azərbaycanda da fikir, söz və məlumat azadlığı, plüralizm hər zaman diqqət mərkəzində saxlanılıb. İnsan hüquq və azadlıqlarının ayrılmaz hissəsi olan söz, fikir və ifadə azadlığı və bunların təminatı hər bir ölkədə demokratiyanın nə dərəcədə inkişaf etdiyinin indiqatoru hesab olunur.

"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev "Unikal" qəzetinə açıqlamasında bildirib ki, Azərbaycanda fikir və söz azadlığı təmin olunub. Onun fikrincə, jurnalistlərin fəaliyyəti üçün azad, demokratik mühit var. A.Quliyev deyir ki, Azərbaycanda söz və məlumat azadlığının qanunvericilik əsaslarını müəyyənləşdirən, tənzimləyən mükəmməl qanunlar toplusu var. Ölkəmizdə "Media haqqında" mükəmməl qanun qəbul edilib: "Azərbaycanda "Media haqqında" yeni qanun qəbul olundu. Əvvəlki qanunda olan çatışmazlıqlar aradan qaldırıldı. Odur ki, bu gün ölkəmizdə qanunvericilik nöqteyi-nəzərindən söz və ifadə azadlığı üçün ciddi problem yoxdur".

Son vaxtlar jurnalist həbslərinin qərb dairələri tərəfindən siyasiləşdirilməsinə gəlincə, Aydın Quliyev deyir ki, bu inandırıcı deyil. Həmsöhbətimizin sözlərinə görə, jurnalist həbsləri müəyyən beynəlxalq təşkilatlar tərəfindən siyasiləşdirilsə də, onların bu reaksiyaları başadüşülən deyil.

"Azərbaycanda jurnalistlər peşə fəaliyyətlərinə görə həbs edilməyiblər. Onlar jurnalist olsalar da, müəyyən media qurumlarında çalışsalar da, onlara qarşı peşə fəaliyyətlərinə görə ittiham irəli sürülməyib. Onlar konkret cinayət tərkibli əməllərlə ittiham olunurlar. Bu faktların nə qədər əsaslı olubolmadığını müvafiq araşdırmalar göstərəcək. Məhkəmə tərəfindən bu məqamlar araşdırılacaq. Ona görə də, onlara qarşı irəli sürülən ittihamlar peşə fəaliyyətləri ilə bağlı deyil"deyə baş redaktor bildirir.

A.Quliyev deyir ki, Azərbaycan hakimiyyəti, dövləti ölkədə söz və media azadlığı istiqamətində müsbət addımlar atır: "Təəssüf ki, müəyyən beynəlxalq qurumların Azərbaycan dövlətinə, hakimiyyətinə qarşı qərəzli münasibəti məsələyə obyektiv qiymət verməyə imkan vermir".

Müsahibimizin sözlərinə görə, Ermənistanda siyasi rəqiblər həbs olunur, jurnalistləri tədbirlərə buraxmırlar. Buna baxmayaraq beynəlxalq təşkilatlar Ermənistanda söz və ifadə azadlığına tətbiq edilmiş məhdudiyyətlərə susur.

Qeyd edək ki, son illər media fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi, dövlətlə media arasında kommunikasiyanın inkişaf etdirilməsi, medianın iqtisadi müstəqilliyinin gücləndirilməsi, onun beynəlxalq əlaqələrinin genişləndirilməsi, media sahəsində beynəlxalq platformaların yaradılması istiqamətində zəruri tədbirlər görülüb. Prezident İlham Əliyev 2022-ci ilin fevral ayının 8-də "Media haqqında" qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə Fərman imzalayıb. Azərbaycanda media islahatlarının "yol xəritəsi" kimi dəyərləndirilən "Media haqqında" Qanunun məqsədi ölkəmizin informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılması, habelə jurnalistika peşəsinin nüfuzunun yüksəldilməsinə şərait yaradılmasıdır. Azərbaycan söz azadlığının qorunduğu, mətbuat azadlığı prinsipinə hörmətlə yanaşılan ölkələrdən hesab edilir. Ölkədə azad medianın, insan hüquq və azadlıqlarının müdafiəsi, demokratik mexanizmlərin mövcudluğunun əsas şərtlərindən biri kimi qəbul edilir. Azərbaycan dövləti azad sözün cəmiyyət həyatında üstün yer tutması, maneəsiz yayılması üçün zəruri addımlar atıb. 1998-ci il avqustun 6-da Azərbaycan Prezidentinin Fərmanı ilə mətbuat üzərində senzura fəaliyyəti ləğv olundu. Senzuranın ləğvi və bu qəbildən digər tədbirlər müstəqil KİV-lərin inkişafını, vətəndaşların beynəlxalq hüquq normaları və Azərbaycan Konstitusiyası ilə təsbit olunan söz, məlumat və fikir azadlığını təmin edib ki, bu da demokratik cəmiyyət quruculuğu yolunu seçən Azərbaycanın perspektiv hədəflərinə uyğun idi. Hazırda Azərbaycanda dünya standartlarına uyğun media, elektron və yazılı KİV-lər formalaşıb. Müstəqil KİV-lərin sayına görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında qabaqcıl mövqelərdən birini tutur. Cəmiyyətdəki müxtəlif düşüncə və mövqelərin işıqlandırılması baxımından sosial şəbəkələr üzərində heç bir məhdudlaşdırıcı tədbirlər görülmür. Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi ölkə başçısının daim diqqət mərkəzindədir. Son illərdə ölkəmizdə azad mətbuatın inkişafına dövlət qayğısı olduqca yüksək səviyyədədir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Azərbaycanda alternativ hərbi xidmət modelinin tətbiqi təklif olunur

***"Müzakirə etdiyimiz məsələlərdən biri "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik layihəsidir. Bu mövzuda yeni bir təklifi sizinlə bölüşərdim. Təklifim ölkəmizdə hərbi xidmətdən keçmənin klassifikasiyasının tətbiq imkanları barədədir. Bu, bir sıra dünya ölkələrində, həmçinin qardaş və strateji müttəfiqimiz olan Türkiyənin təcürbəsində də həyata keçirilir".***

"Unikal" xəbər verir ki, bu təkliflə Milli Məclisin bu gün keçirilən iclasında deputat Elnur Allahverdiyev çıxış edib. O bildirib ki, hərbi xidmətə çağırışla bağlı bir sıra modellər istifadə olunur:

"Tam müddət hərbi xidməti saxlamaqla aşağı müddət qradasiyalar müəyyən oluna bilər ki, buna uyğun olaraq dövlət büdcəsinə vəsait ödəməklə daha az müddətdə hərbi xidmətin keçilməsi üçün alternativ imkanlar yaratmaq mümkündür. Tutaq ki, hərbi xidmət bir il yarım, yaxud ali təhsilli vətəndaşlar üçün bir il müddət təşkil edirsə, buna alternativ olaraq büdcəyə vəsaitin ödənilməsi müqabilində xidməti 2 və ya 6 ay müddətində keçmək olar. Fikrimcə, belə bir dəyişiklik etmiş olsaq, bu, bir sıra obyektiv çətinliklərin çözümündə öz müsbət rolunu oynaya bilər. Burada ilk növbədə gənclərin təhsil probleminə diqqət yetirə bilərik. Azərbaycanda iki dəfə gənclərin dövlət hesabına xaricdə təhsil almalarını tənzimləyən proqram qəbul olunub. Bu, bizim dövlət siyasətimizdir, cənab Prezidentin təşəbbüsüdür ki, əldə etdiyimiz kapitalı insan kapitalına çevirməliyik. Gənclərin savadlı kadrlar olaraq yetişməlləri hökumətin prioritetlərindən biridir. Təbii ki, hər bir vətəndaş hərbi xidmət borcunu yerinə yetirməlidir. Ancaq ali təhsil almış şəxslər 1 il ərzində hərbi xidmətdə olmalarından sonra yenidən təhsilə, elmi axtarışlara adaptasiya olunmaq, karyera quruculuğu baxımından müəyyən çətinliklər yaşayırlar. Düşünürəm ki, əgər belə bir dəyişiklik edilərsə, bu kimi gənclərimiz, misal üçün 2 aylıq hərbi xidmət proqramını keçməklə təhsilini davam etdirməyə, yaxud karyera quruculuğu prosesinə qayıda bilərlər. Bu, həm təhsil, həm də karyera kimi vacib məqamlarda ardıcıllığın əldə edilməsinə səbəb ola bilər. Yəni, dövlətin gənc nəslin təhsili üçün böyük vəsaitlər xərclədiyi bir reallıqda, hərbi xidmət bu ardıcıllığı müəyyən mənada pozmuş olur. Fikrimcə, hər bir gənc hərbi biliklərə yiyələnmək, vətəni qorumaq üçün hərbi bacarıqlara malik olmaq kimi vəzifənin daşıyıcısıdır".

Deputat qeyd edib ki, dəyişiklik həyata keçirilərsə, bütün ali məktəblərdə bir vaxtlar mövcud olmuş hərbi kafedraların bərpası məsələsinə də baxıla bilər: "Bu yolla təhsil dövründə tələbələrin hərb elmi ilə tanışlığı prosesi təşkil olunar. Orduya, hərbçi işinə cəmiyyətimizdə maraq olduqca güclüdür. Professional hərbi xidmətə meyl göstərən gənclərin sayı artır. Vətən müharibəsindəki qələbəmizlə əldə edilən ruh yüksəkliyi, vətənpərvərlik təbii ki, bu prosesdə təkanverici qüvvə rolunda çıxış edib. Eyni zamanda, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsindən sora Silahlı Qüvvələrimizdə köklü islahatlar həyata keçirilir. Qardaş Türkiyə ordusunun modelində komando tipli qoşun növləri formalaşdırılır. Düşünürəm ki, çevik, hazırlıqlı, mobil hərbi heyətin formalaşması həm müasir ordu baxımından, həm də büdcəyə qənaət nöqteti-nəzərdən əlverişli olar. Ordumuzun professional, hərbçi peşəsini öz sənəti kimi qəbul edən vətəndaşlardan ibarət Silahlı Qüvvələrin formalaşdırılması yolunda mühüm addım sayıla bilər. Bu yenilik məşğulluq probleminin çözümünə də öz töhvəsini verər. Ödənişli və qısamüddətli hərbi xidmətdən əldə edilən büdcə gəlirləri isə öz növbəsində ordunun ehtiyaclarına, yaxud hərbi heyətin məvaciblərinin artırılmasına yönəldilər".

***Anar Kəlbiyev***

04_27 IYUI-QARA.qxd 2/1/2024 9:52 PM Page 13



# Bu yanacaqlar üçün vergi güzəştinin müddəti uzadıldı



***"Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov Qərar imzalayıb.

Qərara əsasən, ölkəyə gətirilən reaktiv mühərriklər üçün TC-1 markalı yanacaq və digər yanacaq növlərinin 1 tonu üçün aksiz vergisinin 80 manatdan 1 manata endirilməsi müddəti bu ilin sonuna qədər (daha 1 il) uzadılıb.

Bundan başqa, Nazirlər Kabineti 17 noyabr 2017-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri" ilə bağlı qərarında dəişiklik edib. Bununla bağlı Ə.Əsədovun imzaladığı yeni qərar əsasən, ölkədə idxal olunan eaktiv mühərriklər üçün TC-1 markalı yanacaq və digər yanacaq növləri bu ilin sonuna qədər (daha 1 il) 15 %-lik gömrük rüsumundan azad edilib.

Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

# Sumqayıt Dövlət Dram Teatrına yeni direktor təyin olundu

***Sumqayıt Dövlət Dram Teatrına yeni direktor təyin olunub. Bu barədə Mədəniyyət Nazirliyindən məlumat verilib.***

Bildirilib ki, mədəniyyət naziri Adil Kərimlinin müvafiq əmrinə əsasən, bundan sonra teatrın direktoru vəzifəsini Samir Şəfiyev icra edəcək.

Qeyd edək ki, Şəfiyev Samir Nizaməddin oğlu 1981-ci il sentyabr ayının 7-də Sumqayıt şəhərində doğulub. O, 2003-cü ildə Əlibəy Hüseynzadə adına Azərbaycan Dövlət İncəsənət Universitetinin Rejissorluq fakültəsini bitirib. Bir çox görkəmli sənətkarlardan, habelə mərhum teatr rejissoru, Azərbaycanın Xalq artisti Azərpaşa Nemətovdan dərs alıb.

S.Şəfiyev 2006-2009-cu illərdə H.Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrında rejissor assistenti, daha sonra rejissor vəzifələrində çalışmaqla, bir neçə tamaşanın rejissoru və



quruluşçu rejissoru kimi fəaliyyət göstərib.

2009-cu ildə Sumqayıt şəhər Mədəniyyət və Turizm İdarəsi tərəfindən Sumqayıt şəhər 4 saylı kluba müdir vəzifəsinə təyin olunub. 2012-ci ildən N.Nərimanov adına Sumqayıt şəhər Mədəniyyət Evinin, 2015-ci ildən bugünədək isə N.Nərimanov adına Mədəniyyət Mərkəzinin direktoru vəzifəsində çalışıb.

Sumqayıt şəhərində təşkil olunan bir sıra mədəni-kütləvi tədbirlərin ssenari müəllifi və rejissoru kimi fəaliyyət göstərib.

Bir neçə il Rusiya Federasiyasında və Türkiyə Respublikasında keçirilən beynəlxalq festivallarda iştirak edib və müxtəlif diplomlara layiq görülüb. Çalışdığı illər ərzində səmərəli fəaliyyətinə görə Mədəniyyət Nazirliyi və Sumqayıt şəhər İcra Hakimiyyəti tərəfindən dəfələrlə təşəkkürnamə və fəxri fərmanlarla təltif olunub.

Xatırladaq ki, S.Şəfiyev mərhum kinoaktyor, Əməkdar artist Səyavuş Şəfiyevin və Əməkdar mədəniyyət işçisi, mərhum Gülçöhrə Şəfiyevanın nəslindəndir.

Ailəlidir, 2 övladı var.

# Məşhur texnobloger dələduzların hədəfində: "... O dəqiqə soyunacam"

***Sosial şəbəkə dələduzları bu dəfə tanınmış azərbaycanlı texnobloger Fərid Pərdəşünası hədəf alıblar.***



"Unikal" xəbər verir ki, bu barədə texnobloger Fərid Pərdəşünas öz feysbuk hesabında məlumat verib.

Onun sözlərinə görə, bu dələduzluq növü ilə çox azərbaycanlı kişini şantaj edib, pulunu alıblar: "Bolqar dələduzluğu kişilərlə görüntülü danışıb, onların intim görüntülərini çəkərək, kiber şantaj üsulu ilə pul almaqdır. Bu dələduzluq növündə türk xanımlardan istifadə edilir".

Gördüyünüz ekran çəkimində isə daş qayaya rast gəlib. Sabah görüntülü danışıb, bu dələduzu ifşa edəcəm. Çoxdandır bu məqamı gözləyirdim. Allah bilir hansı yazıq dələduzu, gəldi ilişdi mənə. Bunlar elə bilir mən vikipediaçı zadam, o dəqiqə soyunacam".

# Malların risk qruplarının təyin edilməsi meyarları təsdiqləndi

***Nazirlər Kabineti "Malların risk qruplarının təyin edilməsi meyarları"nın təsdiq edib.***

"Unikal"ın xəbərinə görə, İqtisadiyyat Nazirliyi bu qərardan irəli gələn məsələləri həll etməlidir. Malların risk qrupları maldan yarana biləcək təhlükələr nəzərə alınmaqla, aşağıdakı meyarlar əsasında təyin edilir:

- mexaniki təhlükə;
- boğulma təhlükəsi;
- elektrik cərəyanının vurma təhlükəsi;
- istilik və ya yanğın təhlükəsi;
- yanığa səbəb ola biləcək termal təhlükə;
- kimyəvi təhlükə;
- mikrobioloji təhlükə;
- səs və ultrasəs təzyiqi nəticəsində yarana biləcək təhlükə;
- radiasiya təhlükəsi;
- partlayış təhlükəsi;
- malın növündən (funksional təyinatından) asılı olaraq yarana biləcək təhlükə;
- maye təzyiqi nəticəsində yarana biləcək təhlükə;
- lazer mənbələrindən yarana biləcək təhlükə;
- emal texnologiyalarının son istifadə müddəti;
- malın son istifadə müddəti;
- təhlükənin zərər vura biləcəyi obyektlər;
- obyektlərə vurula biləcək zərərin təsviri;
- zədə ssenarisi.

**Meyarların tətbiqi zamanı aşağıdakılar nəzərə alınır:**

- malın yarada biləcəyi təhlükə ilə bağlı elmi-texniki məlumatlar;
- həssas istehlakçı qrupları nəzərə alınmaqla, maldan yarana biləcək təhlükənin ağırlıq dərəcəsi;
- maldan yarana biləcək təhlükə barədə dövlət orqanlarından (qurumlarından), bələdiyyələrdən, fiziki və hüquqi şəxslərdən daxil olan məlumatlar;



- malın qablaşdırılmasından yarana biləcək təhlükə;
- texniki reqlamentlər qüvvəyə minənədək həmin reqlamentlərin əhatə etdiyi mallara dair standartların, həmçinin uyğunluğun qiymətləndirilməsi ilə bağlı müddəaları müəyyən edən normativ hüquqi aktların tələbləri.

# İtirilən kalorilərin sayı insanın çəkisindən asılıdır



***Gəzinti zamanı yandırılan kalorilərin sayı məşqin sürətindən və insanın çəkisindən asılıdır.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu Avstraliyanın Qərbi Sidney Universitetinin nevroloqu Heidi Moavad deyib.

Həkim, yandırılan kalorilərin sayının 45 kiloqramdan 136 kiloqrama qədər olan böyüklər arasında dəyişəcəyini söyləyib.

"İnsan nə qədər çox çəkiyə sahibdirsə fiziki fəaliyyət zamanı bir o qədər çox kalori yandırır. Gəzinti sürəti də böyük əhəmiyyət kəsb edir. Sürətlə yeridiyiniz zaman enerji daha tez tükənəcək".

Moavad, bir mil (1,61 km) orta sürətlə getməyin 45 kiloqram ağırlığında bir insan üçün təxminən 53 kalori yandıracağını söyləyib. 72 çəkisi olan bir insan üçün bu rəqəm 85-ə (yavaş templə) və ya 91 kaloriyə (sürətli tempdə) qədər artacaq.

***Gülayə Mecid***

# Samux rayonunda 2023-cü il ərzində 111 yeni iş yeri açılıb

***2023-cü il ərzində rayonda 111 yeni iş yeri açılıb.***

80 yeni iş yeri mövcud müəssisə və təşkilatlarda, 31 yeni iş yeri isə yeni yaradılmış müəssisə və təşkilatlarda yaradılmışdır. Yeni açılmış iş yerlərinin 41-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3-ü emal sənayesi, 1-i tikinti, 14-ü topdan və pərakəndə ticarət, 4-ü peşə, elmi və texniki fəaliyyət, 34-



ü təhsil, 2-si əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 10-u istirahət, əyləncə və incəsənət, 2 iş yeri isə digər sahələrdə xidmətlərin göstərilməsi sektorlarının payına düşür.

35 iş yeri dövlət sektorunda, 76 iş yeri isə qeyri dövlət sektoruna malik olan hüquqi şəxslərdə yaradılmışdır və daimi iş yerləridir.

***Samux Rayon Statistika İdarəsi***

# AZAL-dakı vəzifəsindən getdi

***"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) İctimaiyyətlə əlaqələr və kommunikasiya idarəsinin rəisi Aysel Süleymanova vəzifəsindən ayrılıb.***

Bu barədə "Unikal"a Süleymanovanın özü məlumat verib. O bildirib ki, alternativ iş təklifi aldığına görə işdən çıxıb: "Dünən AZAL-da sonuncu iş günüm idi. Alternativ iş təklifi aldığıma görə işdən uzaqlaşmışam".

Xatırladaq ki, A.Süleymanova bu vəzifəyə 2023-cü ilin sentyabrında təyin edilmişdi. Hələ ki, həmin vəzifəyə təyinat yoxdur.



# Nikaha daxil olma qaydaları dəyişdi



***Azərbaycanda nikaha daxil olmağı arzu edənlər Ailə Məcəlləsinin 13-cü maddəsində nəzərdə tutulmuş tibbi müayinədən keçməklə qeydiyyat şöbəsinə, konsulluq idarəsinə və icra hakimiyyətinin nümayəndəliyinə nikaha daxil olmaq barədə şəxsən yazılı ərizə verəcəklər.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov Qərar imzalayıb. Bu sənədə əsasən, Nazirlər Kabinetinin "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın təsdiq edilməsi haqqında", "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" və "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" 2014-cü il 17 oktyabr tarixli Qanunun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" qərarlarda dəyişiklik edilib.

Dəyişikliyə əsasən, nikaha daxil olmaq haqqında ərizə təqdim edildikdə qeydiyyat şöbəsinin, konsulluq idarəsinin və icra hakimiyyəti nümayəndəliyinin vəzifəli şəxsi tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sistemi vasitəsilə əldə edilir. Bu mümkün olmadıqda həmin arayış nikaha daxil olmaq barədə ərizəyə kağız formada əlavə edilir.

Ərizə əsasında nikahın pozulması ər-arvadın və ya onlardan birinin seçdiyi, məhkəmə qətnaməsi əsasında nikahın pozulması isə bu barədə qətnamənin çıxarıldığı yer üzrə qeydiyyat şöbəsi və konsulluq idarəsində dövlət qeydiyyatına alınır.

Nikah qeydiyyat şöbəsi və konsulluq idarəsində pozulduqda nikahın pozulmasının dövlət qeydiyyatına alındığı gündən, məhkəmə qaydasında pozulduqda isə bu barədə məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən nikaha xitam verilmiş sayılır. Məhkəmənin qətnaməsi əsasında nikahın pozulması qeydə alınarkən nikahın pozulması haqqında akt qeydində və şəhadətnamədə nikaha xitam verilmə tarixi kimi məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi gün göstərilir. Məhkəmə qətnaməsi əsasında nikahın pozulmasının dövlət qeydiyyatı Azərbaycan Respublikası Ailə Məcəlləsinin 23.3-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sisteminə daxil olmuş nikahın pozulması barədə qanuni 3 qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparılır.

Bundan başqa, "Elektron məhkəmə" informasiya sistemindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sisteminə nikahın etibarsız sayılması barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış daxil olduqda həmin çıxarışa əsasən nikah haqqında akt qeydi ləğv edilir, bu halda şəhadətnamə verilmir. Akt qeydinin digər nüsxəsinin də ləğv edilməsi üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinə və ya Naxçıvan Muxtar Respublikası vətəndaşlıq vəziyyəti aktlarının arxivinə elektron qaydada bildiriş göndərilir. Məhkəmənin qətnaməsinə əsasən ləğv edilməli olan akt qeydi başqa qeydiyyat şöbələrində və ya konsulluq idarələrində saxlanıldıqda məhkəmənin qətnaməsindən çıxarış icra olunması üçün aidiyyəti üzrə həmin qeydiyyat şöbələrinə və ya konsulluq idarələrinə göndərilir.

Həmçinin, adın, ata adının və soyadın dəyişdirilməsinin dövlət qeydiyyatı Azərbaycan Respublikası Ailə Məcəlləsinin 190.2-ci maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış qeydiyyat informasiya sisteminə daxil olmuş adın, ata adının və soyadın dəyişdirilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarışa əsasən qətnamənin çıxarıldığı yer üzrə qeydiyyat şöbəsi, habelə konsulluq idarəsi tərəfindən aparılır.

# Laçın şəhərindən üç kəndə avtobus açılacaq



***Laçın şəhərində ictimai nəqliyyatla sərnişindaşıma xidmətlərinin təşkil edilməsi üçün üç istiqamət üzrə marşrut xətləri müsabiqəyə çıxarılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi məlumat yayıb.

Qeyd olunub ki, yaxın vaxtlarda Laçın şəhəri-Zabux kəndi, Laçın şəhəri-Zerti kəndi, Laçın şəhəri-Qarıkaha kəndi istiqamətində marşrutlar fəaliyyətə başlayacaq.

Müntəzəm avtobus marşrutlarının açılması ilə bağlı işğaldan azad olunmuş digər ərazilərdə də təhlillər aparılır.

# Kibercinayətkarlıqla üzləşməmək üçün nələrə diqqət etməlisiniz?

***"Doğruluğuna əmin olmadığınız postlara və ya məzmuna əsaslanaraq hərəkət etməyin. Təsdiq edə bilmədiyiniz (dəqiqliyinə əmin olmadığınız) məlumatı paylaşmaqla və ya ötürməklə yalan informasiyanın yayılmasına səbəb olmayın".***




"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) hazırladığı "Rəqəmsal mediadan istifadə edərkən kibercinayətkarlıqla üzləşməmək üçün nələrə diqqət etməlisiniz?" adlı videoçarxda məlumat verilib.

"Dəqiq məlumat əldə etmək üçün rəsmi və səlahiyyətli mənbələri izləyin. Rəsmi təşkilatları təqlid edə biləcək mesajlar, axtarışlar və ya məzmunlara qarşı diqqətli olun. Şübhəli hallarda cihazınızda, hesablarınızda, bankçılıqda və sair istifadə etdiyiniz şifrələri (parolları) dəyişdirin", - deyə DİN-dən bildirilib.

# Qəlbi vətən eşqi ilə döyünən qəhrəman...

***Masallının Qarğalıq kəndində anadan olan, Vətən sevdalısı, yurd eşqli Rəfail Teymur oğlu Hüseynov 44 günlük haqq savaşımıza qoşularaq 20 yaşında şəhidlik zirvəsinə ucalıb. Rəfailin elə həyatda birinci amalı mənfur düşmən tapdağında olan Azərbaycan məxsus torpaqları azad görmək idi.***

Bu, barədə həmişə barışmaz mövqeyini ortaya qoyub, Vətənin taleyini düşünməklə ətrafında olanlara tez-tez deyirmiş: "Vətənimiz müdriklər beşiyi, qəhrəmanlar yurdudur. Erməni dığaların qarşısında acizlik bizə yaraşmır. Vətənin hər qarışını candan əziz tutub uğrunda qan tökmək bizim müqəddəs borcumuz olmalıdır. Ulu yurd yerimiz - Qarabağımız illərdir düşmənə əsir düşüb. Fəqət, şəhid qanı axmayan torpaqdan Vətən olmaz".

Rəfail 2018-ci ildə düşməndən qisas almaq məqsədilə ordu sıralarına yollanıb. Xidmət boyunca nizam-intizamı, cəsurluğu, ağılı, ən əsası Vətən sevdalı ürəyi onu nüfuz sahibi edib. Həqiqi hərbi xidmətdə olarkən könüllü Xüsusi Təyinatlı Qüvvələrin təlimlərinə qatılıb. 398 əsgərdən Rəfail də daxil olmaqla, 28-i kursdan keçməklə xüsusi təyinatlı kimi



seçilib. O, gizir rütbəsində hərbi xidmətini davam etdirib. Bir çox hərbi təlimlərdə iştirak edən qəhrəmanımız tez bir zamanda cəsur kəşfiyyatçı kimi yetişib.

Vətən müharibəsi başlayanda Rəfail də ilk gedən qəhrəman, qeyrətli oğullar sırasında odlu-alovlu səngərdə öz yerini alıb və son nəfəsə qədər döyüşüb yağı düşməndən qisasını alacağına and içib. Füzulinin azadlığı naminə, Kəlbəcər istiqamətində, Murov yüksəkliyi uğrunda ən şiddətli döyüşlərdə işğalçı düşmənə qarşı rəşadətlə vuruşub. Ən ciddi sınaqlarda onlara qan qusdurub.

44 günlük haqq savaşımızın 42 gününü bir qayda olaraq zəfərlə başa vurub. Erməni dığalarının canlı qüvvəsini, hərbi texnikasını sıradan çıxartmaqla bərabər, həm də ağır döyüş zamanı çətin vəziyyətdə neçə-neçə yaralı və şəhid əsgər yoldaşını təxliyə edib.

Rəfail Şuşaya qədər ölümə meydan oxuyub, onunla çiyin-çiyinə vuruşan yoldaşlara misilsiz rəşadət örnəyi olub. Düşmən müdafiəsini qıraraq alınmaz qalamızı fəth edən igidlər cərgəsində tarix yazıb. İstəyinə çatmaq üçün aşılmaz sıldırım qayaları qalxıb düşmən üstünə qartal tək şığıyıb. Son döyüş günü qəfil atılan minaatan mərmisinin qəlpəsindən ağır yaralanıb. "Vətən" deyib, elə Vətən səmasının əbədi parlaq günəşinə çevrilib.

Masallı camaatı sinəsini Ana Vətənə sipər edib yağıya layiqi cavab verən şəhid oğlunu həmişə böyük ehtiram, sevgi, məhəbbətlə xatırlayır.

Rəfail Hüseynov ölümündən sonra Ali Baş Komandanın Sərəncamı əsasında "Vətən uğrunda", "Cəsur döyüşçü", Cəbrayılın, Kəlbəcərin azadlığına görə medalları və "Rəşadət" ordeni ilə təltif edilib.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Xankəndidə silah-sursat aşkarlandı

***Polis əməkdaşları Xankəndidə silah-sursat aşkarlayıb.***



Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib.

Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə yanvarın 31-də Xankəndi şəhəri ərazisində 1 ədəd pulemyot, 5 ədəd müxtəlif markalı avtomat silahı, 1 tapança, 3 ədəd müxtəlif markalı tüfəng, 3 qumbara alışdırıcısı, 42 ədəd patron darağı, 2256 ədəd müxtəlif çaplı patron və digər sursatlar aşkar olunaraq götürülüb.

04_27 IYUl-QARA.qxd 2/1/2024 9:52 PM Page 15





# Liderlər bir masa arxasında

***Avropa İttifaqı Şurasının iclasından əvvəl Aİ liderləri Macarıstan Baş naziri Viktor Orbanla görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel "X" hesabında paylaşım edib.

"Aİ Şurası sammitinə son geri sayım. Məsləhətləşmələr davam edir", - Şarl Mişel bildirib

Görüşdə Aİ Şurasının Prezidenti Şarl Mişel, Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen, Fransa Prezidenti Emmanuel Makron, Almaniya Kansleri Olaf Şolts, İtaliya Baş naziri Giorgia Meloni və Macarıstan Baş naziri Viktor Orban iştirak edib.

# Ermənistan Qərbin təzyiqlərinə görə KTMT tədbirlərində iştirak etmir

***"Ermənistanın KTMT-dən çıxması məsələsi bu gün gündəmdə deyil".***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin KTMT məsələləri üzrə xüsusi səfiri Viktor Vasilev bildirib.

İrəvanın KTMT tədbirlərində iştirak etməməsi ilə bağlı sualı cavablandıran diplomat qeyd edib ki, bu, təzyiq altında baş verir: "Bir çox cəhətdən bu vəziyyət Qərb ölkələrinin təzyiqinin və Ermənistan rəhbərliyinin başa düşülən emosiyalarının nəticəsidir. Rusiya Qərbin Ermənistandakı vəziyyətdən regionda vəziyyəti gərginləşdirmək üçün istifadə etmək cəhdlərini görür və bu barədə İrəvanı məlumatlandırır".

***Ağarza Elçinoğlu***

# Pentaqon İranın üç PUA-sını məhv etdi



***ABŞ ordusu Ədən körfəzində Yəmən husi üsyançıları Ənsar Allaha məxsus gəmi əleyhinə raketi və İranın üç pilotsuz uçuş aparatını (PUA) vurub***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Mərkəzi Komandanlığı məlumat yayıb.

Bildirilir ki, yanvarın 31-də İranın dəstəklədiyi husilər Yəmənin Husilərin nəzarətində olan bölgələrindən Ədən körfəzinə doğru gəmi əleyhinə ballistik raket atıblar.

"Raket "USS Carney" esminesi tərəfindən uğurla vurulub. 40 dəqiqə sonra "USS Carney" daha üç İran PUA-nı vurub", - komandanlığın məlumatında deyilir.

***Gülayə Mecid***

# ABŞ bu təşkilatın bütün üzvlərinə qadağa qoydu

***Fələstin Azadlıq Təşkilatının (FAT) bütün üzvlərinin ABŞ-yə girişi qadağan edilib.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Konqresinin Nümayəndələr Palatası qanun layihəsini qəbul edib.

Nümayəndələr Palatasının 422 üzvü qanun layihəsinin lehinə, iki qanunverici isə əleyhinə səs verib.

Qanun layihəsi həmçinin Fələstinin HƏMAS və İslami Cihad hərəkatları ilə əlaqəsi olan şəxslərin, habelə 2023-cü il oktyabrın 7-də İsrailə hücumda iştirak edən şəxslərin ABŞ-yə girişini qadağan edir.

# Beynəlxalq Ədalət Məhkəməsi bu işdə Moskvanı təqsirli bildi



***Beynəlxalq Ədalət Məhkəməsi Rusiyanı Ukraynanın şərqində antiterror sazişini pozmaqda təqsirli bilib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, məhkəmə Ukrayna və Rusiya arasındakı müharibə ilə bağlı yekun qərarını dünya ictimaiyyəti ilə bölüşüb.

Bildirilir ki, Rusiya Ukraynanın rus etnik əhalisinin sıx yaşadığı Donetsk və Luqansk vilayətlərində insanlara qarşı soyqırım törədib və Ukrayna ərazisində hərbi əməliyyatlara başlayıb.

Beynəlxalq Ədalət Məhkəməsi Ukrayna və Rusiya arasındakı işdə Moskva administrasiyasını günahlandırıb.

Xatırladaq ki, Donetsk və Luqansk vilayətlərində separatçılar qondarma hökumətlər elan ediblər və Rusiya bu hökumətləri tanıyıb. Rusiya prezidenti Vladimir Putin bəyan edib ki, onların məqsədi "Kiyev tərəfindən soyqırıma məruz qalmış insanları qorumaq və Ukraynanı nasizm və militarizmdən təmizləməkdir".

***Gülayə Mecid***

# Ermənistan üçün Roma Statusu qüvvəyə minir

***Ermənistan bu gün rəsmən Beynəlxalq Cinayət Məhkəməsinə qoşulur.***

"Unikal" xəbər verir ki, Roma Statusu Ermənistan üçün fevralın 1-dən qüvvəyə minir.

Oktyabrın 3-də Ermənistan parlamenti 60 səslə Roma Statutunu ratifikasiya edib, prezident Vaaqn Xaçatryan isə oktyabrın 14-də onu imzalayıb, bundan sonra xarici işlər naziri bu barədə cinayət məhkəməsinə məlumat verib.

Bundan təxminən iki saat sonra Kreml Roma Əsasnaməsinin ratifikasiyasının ikitərəfli münasibətlər baxımından düzgün addım olmadığını açıqlayıb.

***Ağarza Elçinoğlu***




# ABŞ İranla müharibəyə başlayacaq - PROQNOZ

***Respublikaçı senator Lindsey Qraham ABŞ prezidenti Co Baydeni İranın neft emalı zavodlarını vurmağa çağırıb və ABŞ-ın 2024-cü ildə İranla müharibə edəcəyini proqnozlaşdırıb.***



"Unikal" xəbər verir ki, Qraham bu barədə "Fox News" telekanalına danışıb.

Amerikalı siyasətçi deyib ki, o, Co Bayden administrasiyasının "hər il" icazə verdiyi müharibələri pisləyir.

"Mən İranı işğal etməyi tələb etmirəm. Amma mən prezident Baydenə deyəcəyəm: problemin mənbəyinə gedin. Əgər siz İranın neft infrastrukturuna hücum etməsəniz, onların pul kisəsini vurmasanız və sizdən qorxmasına şərait yaratmasanız, onlar bizim əsgərlərimizə hücum etməyə davam edəcəklər", - senator əlavə edib.

Bundan əvvəl ABŞ Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi bildirmişdi ki, Yaxın Şərqdə ABŞ ordusuna edilən hücumlardan sonra "uyğun gördükləri" cavab veriləcək.

***Gülayə Mecid***

# "Putini xoş sürprizlər gözləyir" - Nuland

***Rusiyanın döyüş meydanında "xoş" sürprizləri olacaq və Ukraynanın 2024-cü ildə böyük uğurlar qazanacaq.***

"Unikal" xəbər verir ki, bunu ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Viktoriya Nuland deyib.

"Deməliyəm ki, Kiyevdən 2024-cü ilin birliyi və qətiyyətindən və onun Ukrayna üçün mütləq strateji əhəmiyyətindən daha çox ruhlanaraq ayrılıram. Mən həm də Ukraynanın müdafiəsini gücləndirdiyi halda, cənab Putini döyüş meydanında bəzi "xoş" sürprizlər gözlədiyinə və Ukraynanın bu il çox böyük nailiyyətlərə imza atacağına daha çox əminəm", - deyə Nuland deyib.



Xatırladaq ki, Viktoriya Nuland yanvarın 31-də Kiyevə gəlib. Burada o, Ukraynanın xarici işlər naziri Dmitri Kuleba və Ukraynanın müdafiə naziri Rustem Umerov ilə görüşüb.

***Gülayə***

04_27 IYUl-QARA.qxd 2/1/2024 9:52 PM Page 16



# "Qəbələ"nin futbolçusu hakimi təhqir etdi, 4 oyunluq cəzalandı




***AFFA İntizam Komitəsinin iclası keçirilib.***

"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, iclasda Azərbaycan Premyer Liqasının 20-ci turundakı və Azərbayca kubokunun 1/4 final mərhələsinin ilk oyunlarındakı qayda pozuntuları ilə bağlı qərarlar qəbul olunub.

Azərbaycan Premyer Liqasının 20-ci turunun "Kəpəz" - "Qarabağ" oyununda "Kəpəz" klubunun 5 futbolçusu sarı vərəqə aldığına görə Gəncə təmsilçisi 700 manat cərimə edilib.

"Zirə" - "Sabah" oyununun 44-cü dəqiqəsində "Sabah" klubunun 4 nömrəli futbolçusu Elvin Camalov ikinci sarıdan qırmızı vərəqə aldığına görə 1 oyun cəzalanıb, klub isə 500 manat cərimə edilib.

"Neftçi" - "Qəbələ" oyununda "Qəbələ" klubunun 5 futbolçusu sarı vərəqə aldığına görə bölgə təmsilçisi 700 manat cərimə edilib.

Həmin oyunun 59-cu dəqiqəsində "Qəbələ"nin 3 nömrəli futbolçusu Zurab Oçiqava rəqibi aşkar qol imkanından məhrum etdiyinə görə birbaşa qırmızı vərəqə aldığı üçün 1 oyun cəzalanıb, "Qəbələ" klubu 800 manat cərimə edilib.

Sözügedən görüş bitdikdən sonra "Qəbələ"nn 9 nömrəli futbolçusu Əyyub Allaş hakimi təhqir etdiyinə görə birbaşa qırmızı vərəqə aldığı üçün 2 oyun şərti olmaqla 4 oyun cəzalanıb, "Qəbələ" 3000 manat cərimələnib. Sınaq müddəti 3 ay təyin edilib.

Azərbaycan Kubokunda isə "Sabah" - "Qarabağ" oyunu bitdikdən sonra meydançaya kənar şəxslər daxil olduğuna görə "Sabah" 800 manat cərimə edilib

"Araz-Naxçıvan" - "Qəbələ" oyununun 75-ci dəqiqəsində "Qəbələ"nin 4 nömrəli futbolçusu Lukas Afriko ciddi qayda pozuntusuna görə birbaşa qırmızı vərəqə aldığı üçün 1 oyun şərti olmaqla 2 oyun cəzalanıb, klub 1500 manat cərimələnib. Sınaq müddəti 3 ay təyin edilib.

"Sumqayıt" - "Neftçi" oyununda qonaqların 4 futbolçusu sarı vərəqə aldığına görə "Sumqayıt" 700 manat cərimə edilib.

# Məmmədyarov geriladi, Rəcəbov irəliladi




***Beynəlxalq Şahmat Federasiyası (FİDE) növbəti reytinq siyahısını açıqlayıb.***

"Unikal" qurumun rəsmi saytına istinadən xəbər verir ki, Azərbaycan şahmatçılarından Şəhriyar Məmmədyarov (2723 xal) iki sıra geriləyib. O, hazırda 26-cıdır.

Teymur Rəcəbov (2723 xal) 2 pillə irəliləyib və 25-ci yerdə qərarlaşıb. Bir pillə geriləyən Rauf Məmmədov (2651) 88-ci, yenidən "100-lüy"ə qayıdan Nicat Abasov (2641) 96-cıdır.

Reytinq cədvəlinə norveçli Maqnus Karlsen (2830) başçılıq edir. ABŞ-lı Fabiano Karuana (2804 xal) 2-ci, Hikaru Nakamura (2788 xal) isə 3-cüdür.

Qadın şahmatçılarımızdan Günay Məmmədzadə (2449) 26-cı sıradakı yerini qoruyub. Ülviyyə Fətəliyeva (2384) 65-ci, Gövhər Beydullayeva (2374) 76-cı, Gülnar Məmmədova (2351) 100-cüdür.

Çinli Yifan Hou (2632) reytinqdə birincidir. İkinci pillədə onun həmyerlisi Venyun Yu (2559) yer alıbsa, hindistanlı Humpi Koneru (2554) üçüncüdür.

# "Sabah"ın baş məşqçisi istefa verdi



***"Sabah"ın baş məşqçisi Murad Musayev və klub rəhbərliyi arasında görüş keçirilib.***

"Unikal" klubun rəsmi saytına istinadən xəbər verir ki, görüş zamanı rusiyalı mütəxəssis paytaxt təmsilçisindən ayrılmaqla bağlı istəyini rəhbərliyin diqqətinə çatdırıb. Baş məşqçinin klubda qazandığı nailiyyətlər nəzərə alınaraq, onun bu istəyi anlayışla qarşılanıb və müsbət cavab verilib.

Qeyd edək ki, Murad Musayev 2021-ci ilin noyabr ayından "Sabah"ın baş məşqçisi kimi çalışırdı. Komanda rusiyalı mütəxəssisin rəhbərliyi altında 87 oyun keçirib (48 qələbə, 16 heç-heçə , 23 məğlubiyyət). "Sabah" ölkə çempionatının 2022/2023-cü illər mövsümünü gümüş medalla başa vuraraq, tarixində ilk dəfə avrokuboklara vəsiqə qazanıb.

# Onlar idmançını döyüblər - TƏFƏRRÜAT



***Ötən gün Azərbaycanın tanınmış idmançılarının həbs edilməsi barədə xəbər vermişdik.***

Xəbərdə bildirilir ki, Azərbaycan MMA və Qrappling Federasiyasının baş məşqçisi Ruslan Əfəndiyev və tələbələri Tofiq Musayev, Xəzər Rüstəmov, Vüqar Kəremov, Mehman Məmmədov və R.Əsədov münaqişə vəziyyəti yaratmaqla, ictimai yerdə bir vətəndaşa zor tətbiq edərək xuliqanlıq hərəkətləri törətməkdə ittiham olunurlar.

"Unikal" bildirir ki, lent.az-ın əldə etdiyi məlumata görə, adıçəkilən şəxslər başqa bir idmançını döyüblər.

Belə ki, bir qrup idmançı arasında dava düşüb və nəticədə adı çəkilən şəxslər digər idmançını döyüblər. Döyülənin adı açıqlanmasa da onun tanınmış idmançı olduğu bildirilir.

Qeyd edək ki, fakta görə Bakı Şəhər Baş Polis İdarəsində cinayət işi başlanıb və 4 nəfər həbs olunub. 2 nəfər - Tofiq Musayev və Mehman Məmmədov haqqında digər qətimkan tədbiri seçilib. Hazırda xuliqanlıq maddəsi üzrə qaldırılan cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.

# Azərbaycan Kubokunun 1/4 finalında rekord qeydə alındı




***Azərbaycan Kubokunun 1/4 final mərhələsinin ilk oyunlarında qapılara 18 qol vurulub.***

"Unikal" Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, "Qarabağ" "Sabah"ı 7:1, "Neftçi" "Sumqayıt"ı 3:2, "Zirə" "Səbail"i 2:1 hesabı ilə məğlub edib. "Araz-Naxçıvan" isə "Qəbələ" ilə heç-heçəyə imza atıb - 1:1.

1/4 finalın dörd matçındakı qol sayında yarış tarixinin yeni rekordu qeydə alınıb. Bunadək rekord 17 qolun vurulduğu 2006-2007-ci illər mövsümünə məxsus idi. Həmin vaxt 1/4 finalın ilk görüşləri məhsuldar alınıb.

# Mourinyo "Barselona"nın baş məşqçisi olacaq?



***İtaliyanın "Roma" klubundan ayrılan Joze Mourinyo karyerasını İspaniya təmsilçisi "Barselona"da davam etdirə bilər.***

61 yaşlı mütəxəssisin agenti Xorxe Mendeş onun xidmətlərini Kataloniya klubuna təklif edib.

Bildirilib ki, portuqaliyalı baş məşqçinin daha əvvəl "Real"da işləməsi bir çox azarkeşlərin narazılığına səbəb ola bilər.

Qeyd edək ki, Mourinyo yanvarın 16-da İtaliya klubu ilə vidalaşıb. Xavi isə mövsümün sonunda "Barselona"nın baş məşqçi postundan ayrılacağını açıqlayıb.